Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 135 (7862) CÜMƏ AXŞAMI, 21 iyun 2018-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az | Qiyməti 40 qəpik





# İKİNCİ ŞAPALAQ

## İlham Əliyevin əks-həmlə taktikası daha 11 min hektar torpağı geriyə qaytardı

**2016-cı ilin aprel ayında təmas xəttindəki təxribat əməllərinə əks- hücumla cavab verən Azərbaycan Ordusu sarsıdıcı zərbəsi ilə düşmənin burnunu ovdu:**

- *Yarım saat ərzində erməni hərbçilərinin lovğalıqla "alınmaz səngər", "keçilməz sədd" adlandırdıqları və uzun illər boyu möhkəmləndirdikləri müdafiə qurğuları dəf edildi;*
- *Qəhrəman əsğər və zabitlərimiz düşmənə səngərdən çıxıb qaçmağa belə imkan vermədilər;*
- *Düşmənlərimiz indiyə qədər sorağını eşitdikləri yeni növ silahların gücünü və dağıdıcılıq qabiliyyətini də öz üzərlərində yoxladılar.*
- *Qısa müddətdə hətta Dağlıq Qarabağdakı mülki əhali belə şələ-küləsini götürüb aradan çıxmağa başladı və onların qarşısını kəsən "müdafiə postları" da vahimələnmiş insanları saxlaya bilmədi.*

Bir həmləyə Lələtəpə yüksəkliyini və onunla birlikdə 2 min hektar ərazini itirənlər baş verənlərin hələ başlanğıc olduğunu deyəsən anlayırdılar.

Az vaxtda Cocuq Mərcanlını yenidən tikib-quran, əhalini geriyə qaytararaq vətəndaşlarına təhlükəsiz, rahat əmək və yaşayış şəraiti yaradan Azərbaycan dövlətinin gücü, imkanları və real mesajı artıq hamıya çatmışdı.

**Prezident İlham Əliyevin hər bir addımı atmazdan öncə onun nəticələrini və həmin nəticələrdən yaranacaq istənilən situasiyanı aradan qaldırmağın üsul və vasitələrini irəlicədən hesablaması da artıq hamıya bəllidir!**

❖ ❖ ❖

Budur, Ali Baş Komandanımız əlverişli məqam taparaq bu dəfə Ermənistanın yeni rəhbərliyinin hoqqalarına və oyunbazlığına cavab kimi düşmənə ikinci şapalağını vurdu!

**Buna "tərs sillə" də demək olar!**

**Özü də bu şapalağın səsi Qarabağdan yox, Naxçıvandan gəldi!**

**Bu dəfə azad olunan vətən torpağının adı isə Günnüt kəndidir!**



Birincidən - aprel əməliyyatından da qüdrətli olan bu şapalaq ermənilər i elə bir şoka salıb ki... Çünki:

- *Bu dəfə nə bir güllə atıldı, nə bir yeni silah işlədildi! Hər şey səssiz-səmirsiz və qəflətən baş verdi!*
- *Nə az, nə çox - 11 min hektar torpaq sahəsi yenidən qəhrəman Azərbaycan Ordusunun nəzarətinə keçdi.*
- *26 ildən sonra çox mühüm strateji nöqtələr - Xunut dağı və Ağbulaq yüksəkliyi, Qızılqaya və Mehridağ geri qaytarıldı!*
- *Üstəlik, Ermənistandan Dağlıq Qarabağa aparan Gorus-Laçın-Xankəndi yolu da hərbçilərimiz tərəfindən nəzarətə götürüldü!*

**Bu isə o deməkdir ki, əgər Ermənistan Azərbaycanda hərbi əməliyyatlara yenidən başlasa, düşmən ordusu Naxçıvanla Azərbaycan arasında mühasirə vəziyyətinə düşəcəkdir!**

Deyəsən, hələ bunu bir qədər gec anlayacaqlar!

### ƏDALƏTSİZ, HÜQUQUN GÜCSÜZ, GÜCÜN İKİLİ STANDARTLAR TƏTBİQ ETDİYİ ZAMANIN UĞUR TAKTİKASI

Azərbaycanın həll edə bilmədiyi yeganə problem Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsidir!

Münaqişə ona görə çözülməyib ki, bu işlə birbaşa Azərbaycanın özü yox, beynəlxalq təşkilatlar və həmsədr dövlətlər məşğuldur. Belə ki, özü dörd qətnamə qəbul edəndən sonra BMT bu işi ATƏT-in Minsk qrupuna həvalə edib!

**ATƏT isə yaranandan bu günədək tapşırılan missiyanın öhdəsindən gələ bilməyib!**

**Yalnız səmərəsiz səfərlər edib və nəticəsiz danışıqlar aparıb...**

Son sözü isə budur ki, "münaqişə tərəfləri hansı mövqeyə gəlsə", biz onunla razılaşacağıq!

*Əgər tərəflər özləri razılaşa bilərdilərsə, onda ATƏT-i niyə yaradıb ona bu zəhməti verirdilər?!*

*Bəs BMT Təhlükəsizlik Şurasının dörd məlum qətnaməsindəki "Ermənistan qoşunları Azərbaycan ərazilərini qeyd-şərtsiz və dərhal tərk etməlidirlər" tələbini kim yerinə yetirməlidir?!*

*Bəs Ermənistana işğalçı olduğunu kim deməli və işğal etdiyi ərazilərdən könüllü çıxmadığına görə kim ona sanksiyalar tətbiq etməlidir?!*

Ataların bir sözü var: Deyir, çətini boynuna götürməkdir, sonra daşımaq asandır!

*Deyəsən, ATƏT boynuna götürüb:*

*Ermənistanın prezidenti Dağlıq Qarabağa gəlir, dalınca baş naziri, sonra müdafiə naziri...*

*ATƏT lal kimi baxır...*

*İşğal faktını bundan gözəl nə təsdiq edə bilər ki?..*

*Nə vaxt qeyrətə gələcəklər!*

**Hələ ki, ədalətsizliyin baş alıb getdiyi, beynəlxalq hüququn gücsüz, gücün isə ikili standartlar tətbiq etdiyi bir dövrdə bu suallara cavab verməyə istəyən yoxdur!**

*Ardı 5-ci səh.*

# İsmayıllı rayonunun Qaraməryəm-İsmayıllı-Şəki (5 km)-Kəlbənd-Girk avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Bir min nəfər əhalinin yaşadığı 2 yaşayış məntəqəsini birləşdirən Qaraməryəm-İsmayıllı-Şəki (5 km)-Kəlbənd-Girk avtomobil yolunun tikintisi məqsədi ilə Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 5,4 milyon (beş milyon dörd yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 20 iyun 2018-ci il*

# Azərbaycan ilə Vyetnam arasında bütün sahələrdə əməkdaşlığın inkişafına önəm verilir



Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədov iyunun 20-də Vyetnamın sənaye və ticarət naziri, iqtisadi, ticarət, elmi və texniki əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın həmsədri Tran Tuan Anhın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, Baş nazir Novruz Məmmədov Azərbaycan ilə Vyetnam arasında yüksək səviyyəli qarşılıqlı səfərlərin əhəmiyyətini qeyd edib. Bunun ölkələrimizin əlaqələrinin yüksək səviyyədə olduğunu göstərdiyini vurğulayan Novruz Məmmədov bildirib ki, Azərbaycan ilə Vyetnam arasında bütün sahələrdə əməkdaşlığın inkişafına önəm verilir.

Prezident İlham Əliyevin Vyetnama səfərini xatırladan Baş nazir vurğulayıb ki, həmin səfər zamanı Azərbaycan nümayəndə heyətinin tərkibində iştirak edərkən energetika sahəsində əməkdaşlığın perspektivləri müzakirə olunub, bu sahənin inkişafı üçün yaxşı imkanların mövcudluğu vurğulanıb. Son illər Azərbaycan ilə Vyetnam arasında siyasi, iqtisadi və mədəni sahələrdə əlaqələrin inkişaf etdiyi diqqətə çatdırılıb.

Vyetnamın sənaye və ticarət naziri, iqtisadi, ticarət, elmi və texniki əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın həmsədri Tran Tuan Anhın Azərbaycana səfərinin böyük əhəmiyyət daşıdığını bildirən Novruz Məmmədov qeyd edib ki, bu səfər ölkələrimiz arasında münasibətlərin inkişafına öz töhfəsini verəcək.

Bakıda keçirilən Azərbaycan-Vyetnam Hökumətlərarası Komissiyasının ikinci iclası barədə Baş nazirə ətraflı məlumat verən Tran Tuan Anh regionun lider dövləti olan Azərbaycan Respublikası ilə ikitərəfli əlaqələrin ölkəsi üçün maraq doğurduğunu vurğulayıb. Qonaq kənd təsərrüfatı, ərzaq məhsulları, elm, təhsil, energetika, idman, investisiya qoyuluşu, turizm və digər sahələrdə əməkdaşlığın vacibliyini qeyd edib.

Görüşdə qarşılıqlı əməkdaşlığın perspektivinə dair tərəfləri maraqlandıran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Azərbaycanın qədim diyarındakı zəngin mədəni irsə yüksək qiymətin təzahürü

İyunun 20-də Naxçıvan Dövlət Musiqili Dram Teatrında "Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı-2018"in açılış tədbiri keçirilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatının (ISESCO) Baş direktoru Əbdüləziz Osman əl-Tuveycri, Azərbaycan Respublikasının mədəniyyət naziri Əbülfəs Qarayev, Əlcəzairin mədəniyyət naziri Əzzədin Mihobi, Qvineya Respublikasının mədəniyyət, idman və tarixi-mədəni irs naziri Sanosi Bantama Sou, İndoneziya Respublikasının təhsil və mədəniyyət naziri Muhacir Əfəndi, Tacikistan Respublikasının mədəniyyət naziri Şəmsəddin Şodibek, Özbəkistanın mədəniyyət naziri Bəxtiyar Seyfullayev, Beynəlxalq Türk Mədəniyyəti Təşkilatının baş katibi Düsen Kaseinov, Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti Akif Əlizadə və digər qonaqlar ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edərək gül dəstələri qoyub, ulu öndərin xatirəsinə ehtiramlarını bildiriblər.

Daha sonra tədbir iştirakçıları Heydər Əliyev muzeyinə gələrək dahi şəxsiyyətin həyatı, siyasi və dövlətçilik fəaliyyəti ilə bağlı eksponatlara baxıblar.

Tədbir başlanmazdan əvvəl teatrın foyesində fotoqraf Hüseyn Bağırovun "Mənim Naxçıvanım" fotosərgisinə baxış olub. Naxçıvanın bütün gözəlliklərini, özünəməxsus təbiətini və müasir inkişafını nümayiş etdirən fotolar maraqla qarşılanıb.

*Ardı 3-cü səh.*

# NAXÇIVAN - İslam mədəniyyətinin paytaxtı

**Naxçıvan dünyanın ən qədim, ilkin sivilizasiya mərkəzlərindən biridir. Naxçıvanda "sivilizasiyanın sübh çağı" olan Paleolit dövrünə aid Qazma və Daşqala kimi ilk insan düşərgələrinin olması qədim diyarın insanlığın ilkin beşiklərindən biri olduğunu nümayiş etdirir.**

Xüsusən, Qazma mağarası Mustye dövrünə aid olub, Qafqazda neandertal insanın ən son dayanacağı kimi qəbul edilir. Qədimliyinə və xarakterinə görə Qazma mağarası məşhur Azıx mağaraları ilə müqayisə oluna bilər.

Həzrəti Nuh peyğəmbərin adı ilə bağlı olan çoxsaylı yer adlarının mövcudluğu faktı da Naxçıvanın sivilizasiya daşıyıcısı olan məkan olmasını bir daha təsdiqləyir. Naxçıvan ərazisindəki Gəmiqaya, Qapıcıq, Baca bulağı, Nəbi yurdu, Qaranquş yaylağı, Xəzər obası, Peyğəmbərayağı yaşayış yeri, məşhur Haçadağ, Nəsirvaz, Nəhəcir (Nuhəcir), Nehrəm (Nuhram), Nürgüt kimi kəndlərin adları və bu toponimlərlə səsləşən əsatirlər diyarın həqiqətən də qədim Nuhçıxan, yəni, Nuh peyğəmbərin gəmisinin gəlib çatdığı yer olduğunu nümayiş etdirir. Fikrimizcə, Naxçıvanqala ilə sağ tərəfdən Qızlar bulağı, sol tərəfdən isə Tumbul kəndi arasındakı ərazi Nuhdaban adlı ilkin şəhərin salındığı yerdir.



*Nuhdaban - Naxçıvandakı sivilizasiya damğasıdır. Nuh peyğəmbərin Dünya tufanından sonra dabanını yerə basıb, oturaq həyata başladığı bu yerdə saldığı Nuhdaban yaşayış yeri Naxçıvan protoşəhərinin babasıdır.*

*Nuhdaban - Azərbaycanın Troyasıdır.*

*Nuhdaban - Duzdağ bəşəriyyətin babası Nuh peyğəmbərin adı ilə bağlı olan qədim sivilizasiyanı yaşadan tarixin silinməz izləridir.*

*Nuh peyğəmbərin məzarının burada yerləşməsi Naxçıvanın bəşər sivilizasiyasının baş kəndi olduğunu göstərir.*

*Naxçıvan şəhərinin adı da Dünya tufanı hadisəsi ilə bağlı olub, Nuhçıxan mənasını ifadə edir.*

*Nuhçıxan - Nuh peyğəmbərin gəmisinin nəhayət, quruya çıxması mənası ilə bərabər, həm də nuhçuların, yəni, bəşəriyyətin xilaskarı olan peyğəmbərin tərəfdarlarının yaşadığı yer mənasını da bildirir.*

Son illərdə Avropa alimlərinin toplayıb elmi dövriyyəyə daxil etdikləri Nuh peyğəmbərin çağırışlarında "bütlərin qarşısında baş əyməyin" qadağan edilməsi və "Allahın adına hörmətlə yanaşmağın" xüsusi hökmlər kimi ifadə olunması notları *Naxçıvanın bütpərəstlikdən təkallahlılığa keçidin əsas mərkəzlərindən biri olduğunu, tanrıçılıq təliminin burada geniş yayıldığını sübut edir.*

*Gəmiqayadakı əlləri səmaya doğru ucaldılmış insan şəkilləri Tanrıya itaət edən ilk insanların ibadətini əks etdirir. Naxçıvandakı məşhur Əshabi-Kəhf ziyarətgahı təkallahlılığın ən qüdrətli carçısı olan Nuh peyğəmbərin və onun tərəfdarlarının qədim ibadət yeridir.*

Təkallahlılıq - tanrıçılıq inancı islama keçid üçün əsas körpü funksiyasını daşımışdır. Ona görə də tanrıçılığın ən mötəbər abidələrindən olan məşhur *Əshabi-Kəhf ziyarətgahı dərhal təkallahlılığa əsaslanan islam dini ibadətgahına çevrilmişdir. Adına müqəddəs "Qurani-Kərim"də məxsusi bir surə həkk olunması "Əshabi-Kəhf"in islam məbədgahı kimi qəbul olunmasında mühüm rol oynamışdır.*

*Ardı 4-cü səh.*

# Azərbaycan və Çin arasında ikitərəfli əlaqələr qarşılıqlı faydalı şəkildə inkişaf edir






Azərbaycan Respublikası Milli Məclisinin Sədri Oqtay Əsədovun rəhbərliyi ilə parlament nümayəndə heyəti Ümumçin Xalq Nümayəndələri Yığıncağının sədri Li Canşunun dəvəti ilə Çin Xalq Respublikasında rəsmi səfərdədir.

AZƏRTAC xəbər verir ki, iyunun 20-də nümayəndə heyəti Çin Kommunist Partiyasının Mərkəzi Partiya Məktəbində olub. Nümayəndə heyəti əvvəlcə partiyanın muzeyi ilə tanış olub. Bildirilib ki, muzeydə partiyanın tarixinə, onun ölkənin siyasi həyatındakı vacib roluna dair eksponatlar saxlanılır.

Milli Məclisin Sədri Oqtay Əsədovun partiyanın rəhbərliyi ilə görüşündə iki ölkənin tarixən formalaşmış əlaqələrindən, müasir dövrdə müxtəlif sahələrdə, o cümlədən hakim partiyalar arasında əməkdaşlığın genişlənməsindən məmnunluq ifadə olunub. Qeyd edilib ki, dövlət başçıları İlham Əliyevin və Si Cinpinin siyasi iradəsi ilə ikitərəfli əlaqələrimiz qarşılıqlı faydalı şəkildə inkişaf edir.

Azərbaycan nümayəndə heyəti səfər çərçivəsində Pekindəki İmperator Sarayı və muzeyi ilə də tanış olub.

Bildirilib ki, 1420-1912-ci illərdə Çin imperatorlarının iqamətgahı kimi fəaliyyət göstərmiş bu tarixi abidə dünyada ən böyük saray kompleksi hesab olunur. Ənənəvi Çin memarlığı üslubunda inşa olunan, böyüklü-kiçikli 990-a yaxın tikilidən ibarət olan saray kompleksi UNESCO-nun Bəşəriyyətin Maddi İrs Siyahısına daxil edilib.

Azərbaycan parlamentinin nümayəndə heyəti İmperator sarayını gəzib, kompleksin müxtəlif hissələri ilə tanış olub.

# Azərbaycanla Çin arasında əməkdaşlığın genişlənməsi üçün etibarlı hüquqi baza yaradılmışdır



Çin Xalq Respublikasında səfərdə olan Azərbaycan Respublikası Milli Məclisinin Sədri Oqtay Əsədovun rəhbərlik etdiyi nümayəndə heyəti iyunun 20-də Ümumçin Xalq Nümayəndələri Yığıncağı Daimi Komitəsinin sədri Li Canşu ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, Çin-Azərbaycan əlaqələrinin tarixi köklərinin olduğunu bildirən Li Canşu qədim İpək yolunun hər iki xalqı sıx tellərlə bir-birinə bağladığını deyib. O, ölkələrimiz arasında əlaqələrin hazırda yüksək səviyyədə olduğunu bildirərək bu münasibətlərin xalqlarımızın maraqlarına söykənərək qarşılıqlı faydalı şəkildə genişləndiyini diqqətə çatdırıb.

İki ölkə arasında münasibətlərin inkişafında yüksək səviyyəli səfərlərin əhəmiyyətini vurğulayan Ümumçin Xalq Nümayəndələri Yığıncağı Daimi Komitəsinin sədri Azərbaycan Prezidenti İlham Əliyevin 2015-ci ildə Çinə səfəri zamanı dövlət başçılarının ikitərəfli əlaqələrin müxtəlif sahələrdə inkişafı ilə bağlı mühüm qərarlar qəbul etdiklərini məmnunluqla xatırladıb.

Li Canşu bu yaxınlarda ölkəmizdə keçirilmiş prezident seçkilərində İlham Əliyevin inamlı qələbə qazanmasını yada salaraq bu qələbənin Azərbaycan xalqının ona olan böyük etimadının göstəricisi olduğunu deyib. Əmin olduğunu bildirib ki, Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi ilə daha da inkişaf edəcək.

Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi münasibətilə təbriklərini çatdıran Li Canşu ölkəsinin Azərbaycanın inkişafına sevindiyini və bu inkişafı dəstəklədiyini bildirib.

Çin rəsmisi Milli Məclisin Sədri Oqtay Əsədovun Çinə səfərinin ikitərəfli əlaqələrimizin, o cümlədən parlamentlərarası münasibətlərin inkişafına töhfə verəcəyinə əminliyini bildirib.

Li Canşu ölkəsinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə tərəfdar olduğunu diqqətə çatdırıb.

Çinə rəsmi səfərə dəvətə görə təşəkkürünü bildirən Milli Məclisin Sədri Oqtay Əsədov Azərbaycanın Çin ilə münasibətlərin hərtərəfli inkişafına xüsusi əhəmiyyət verdiyini bildirib. O, Prezident İlham Əliyevin ölkələrimizi xoş ənənələrə malik dostluq və əməkdaşlıq münasibətlərinin birləşdirməsi ilə bağlı fikrini yada salaraq hazırda əlaqələrimizin müxtəlif sahələrdə yüksək inkişaf dinamikası ilə seçildiyini diqqətə çatdırıb.

İkitərəfli əlaqələrin inkişafında yüksək səviyyəli rəsmi səfərlər zamanı əldə edilmiş razılaşmaların müstəsna əhəmiyyət kəsb etdiyini bildirən O.Əsədov dövlət başçıları İlham Əliyev və Si Cinpin arasında mövcud olan qarşılıqlı hörmət və etimada əsaslanan münasibətlərin ölkələrimiz arasında fəal siyasi dialoqun əsasını təşkil etdiyini deyib. Bu siyasi dialoq, öz növbəsində, iki ölkə arasında iqtisadi, hərbi, nəqliyyat, turizm, humanitar və başqa sahələrdə əlaqələrin genişlənməsində mühüm rol oynayır.

Milli Məclisin Sədri Azərbaycan Prezidenti İlham Əliyevin Çinə 2015-ci ildə dövlət səfərindən sonra münasibətlərimizin keyfiyyətcə daha yüksək səviyyəyə qalxdığını deyib. Ölkələrimizin aparıcı siyasi qüvvələri olan Yeni Azərbaycan Partiyası və Çin Kommunist Partiyası arasında sıx əməkdaşlıq münasibətlərinin mövcud olduğunu qeyd edən O.Əsədov bu əlaqələrin, öz növbəsində, bütün sahələrdə əməkdaşlığın genişlənməsinə mühüm töhfələr verdiyini vurğulayıb. “Sevindirici haldır ki, partiyalararası qarşılıqlı səfərlər intensiv xarakter alıb”, - deyən Milli Məclisin Sədri Çin Kommunist Partiyasının 19-cu qurultayında qəbul olunmuş qərarların Azərbaycanda da yaxından izlənildiyini diqqətə çatdırıb.

Milli Məclisin Sədri dövlətlərarası münasibətlərin inkişafında parlamentlərin böyük rolundan bəhs edərək Azərbaycan nümayəndə heyətinin Çinə hazırkı səfərinin qanunverici orqanlar arasında əməkdaşlığın genişlənməsinə də töhfə verəcəyinə əminliyini bildirib.

Oqtay Əsədov Çinin Azərbaycanın müstəqilliyinə, suverenliyinə və ərazi bütövlüyünə hörmətini yüksək qiymətləndirərək Dağlıq Qarabağ münaqişəsi ilə bağlı BMT Təhlükəsizlik Şurasında qəbul olunan qətnamələrə Çinin verdiyi dəstəyi xatırladıb. O, iki ölkə arasında əlaqələrin inkişafı üçün etibarlı hüquqi bazanın yaradıldığını qeyd edərək qarşılıqlı ticarət dövriyyəsinin daha da genişləndirilməsi üçün böyük imkanların olduğunu deyib.

Azərbaycanın Çinin “Bir kəmər, bir yol” təşəbbüsünü ilk dəstəkləyən ölkələrdən biri olduğunu xatırladan O.Əsədov bunun ölkələri və xalqları bir-birinə yaxınlaşdıran, əməkdaşlığı təşviq etməklə dövlətlərin iqtisadi inkişafına təkan verən bir strategiya olduğunu deyib. O, Azərbaycanın sahib olduğu tranzit-logistika imkanlarının “Bir kəmər, bir yol” təşəbbüsünün reallaşmasına əməli töhfələr verdiyini diqqətə çatdırıb.

Milli Məclisin Sədri ölkələrimizin mədəni, təhsil, turizm və digər sahələrdə əməkdaşlığının genişlənməsi üçün yaxşı imkanların olduğunu deyib.

Azərbaycan nümayəndə heyətinə Milli Məclisin Azərbaycan-Çin parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Siyavuş Novruzov, deputatlar Əliağa Hüseynov, Xanlar Fətiyev, Rauf Əliyev, Malik Həsənov, Hikmət Məmmədov, Milli Məclis Aparatının rəhbəri Səfa Mirzəyev və digər rəsmi şəxslər daxildir.

# Ombudsmanların XV Bakı Beynəlxalq Konfransı işə başlayıb

İyunun 20-də “Hüquq bərabərliyinin təmin olunmasında və təşviqində milli insan hüquqları təsisatlarının rolu” mövzusunda Ombudsmanların XV Bakı Beynəlxalq Konfransı işə başlayıb.



AZƏRTAC xəbər verir ki, konfrans 18 iyun - Azərbaycan Respublikasında İnsan Hüquqları Günü, Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100, ümummilli lider Heydər Əliyevin anadan olmasının 95 və Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin qəbul edilməsinin 70 illiyinə həsr edilib.

İkigünlük tədbirdə dövlət və hökumət rəsmiləri, xarici ölkələrin ombudsmanları, insan hüquqları sahəsində beynəlxalq ekspertlər, Milli Məclisin deputatları, ölkəmizdə akkreditə olunmuş diplomatik korpusun nümayəndələri, QHT-lərin və KİV-in təmsilçiləri iştirak edirlər.

Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) Elmira Süleymanova konfransın açılışında çıxış edərək ölkəmizin inkişafı, onun təşəbbüsü və iştirakı ilə reallaşdırılan uğurlu layihələr barədə məlumat verib. O, həmçinin Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyəti, gördüyü mühüm işlər haqqında danışıb. Qeyd edib ki, hüquqi və dünyəvi respublika nümunəsi olan Azərbaycan Xalq Cümhuriyyəti müsəlman Şərqində ilk demokratik respublika kimi tarixə düşüb. Xalq Cümhuriyyəti bir çox Avropa ölkələrindən öncə qadınlara səsvermə hüququ verib. Cümhuriyyət nəinki müstəqil dövlətimizin idarəetmə qaydalarını, eyni zamanda, bunun üçün zəruri olan orqanları, yəni, ilk parlamenti, hüquq mühafizə və təhlükəsizlik orqanlarını, ilk milli ordumuzu yaratdı.

Elmira Süleymanova qeyd edib ki, 1993-cü il iyunun 15-də xalqımızın təkidli tələbi ilə hakimiyyətə qayıdan ulu öndər Heydər Əliyev tərəfindən həyata keçirilən hərtərəfli köklü islahatlar nəticəsində müstəqilliyimiz dayanıqlı inkişaf mərhələsinə qədəm qoydu. 1994-cü ildə ümummilli lider Heydər Əliyev tərəfindən imzalanmış “Əsrin müqaviləsi” ölkəni dərin siyasi və iqtisadi böhrandan çıxardı, sürətli iqtisadi inkişaf, insanların sosial rifahının yüksəlməsi, bütün sahələrdə, o cümlədən insan hüquq və azadlıqlarının təmin olunması, konseptual əsaslarla milli fəaliyyət planları və proqramlarının qəbul edilməsi üçün real imkanlar yaratdı.

Ombudsman, həmçinin Azərbaycanın dünya arenasındakı mövqeyindən söz açaraq ölkəmizin əldə etdiyi nailiyyətlərdən danışıb.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev konfransın mövzusunun əhəmiyyəti və aktuallığından danışıb. 2018-ci ilin Prezident İlham Əliyev tərəfindən ölkəmizdə “Azərbaycan Xalq Cümhuriyyəti ili” elan edildiyini xatırladan sədr bu hadisənin nə dərəcədə əhəmiyyətli olduğunu keçirilən silsilə tədbirlərin də sübut etdiyini deyib. “Bu il həm də ona görə əlamətdardır ki, müasir Azərbaycanın qurucusu, dövlət müstəqilliyimizin banisi ulu öndər Heydər Əliyevin 95 illik yubileyi təntənə ilə qeyd olunur. Müstəqil Azərbaycanın ilk müstəqil Konstitusiyası ulu öndər Heydər Əliyevin şah əsərlərindəndir. Konstitusiyaya edilən dəyişikliklərdən sonra ombudsmana Azərbaycan Konstitusiya Məhkəməsinə həm konkret olaraq, həm də gələcəkdə baş verə biləcək insan hüquq və azadlıqlarının pozulması ilə bağlı müraciət etmək hüququ verilib. Ombudsman təsisatı bu hüquqdan çox səmərəli istifadə edir. Biz birgə fəaliyyət göstərməklə mövcud problemlərin aradan qaldırılmasına çalışırıq. İnsan hüquq və azadlıqlarının təmin edilməsində Ombudsman təsisatının rolu böyükdür”, - deyə Fərhad Abdullayev vurğulayıb.

Fərhad Abdullayev bildirib ki, hər bir dövlətin ali məqsədi insan hüquq və azadlıqlarının qorunmasıdır ki, bu da Azərbaycan Konstitusiyasında öz əksini tapıb. Azərbaycanda hüquqi dövlətin inkişafı bizim müstəqil siyasətimizlə bağlıdır.

Milli Məclisin Sədr müavini, İnsan hüquqları komitəsinin sədri Bahar Muradova Azərbaycanda insan hüquqlarının qorunması sahəsində görülən məqsədyönlü işlərdən danışıb. Qeyd edib ki, Azərbaycan hökuməti, parlamenti, cəmiyyəti bununla bağlı üzərinə düşən öhdəlikləri layiqincə yerinə yetirməyə çalışır. Bu sahədə Ombudsman təsisatının rolunu xüsusi qeyd etmək lazımdır.

“Ombudsman dövlət qurumları ilə vətəndaş cəmiyyəti arasında körpü rolunu oynayır, problemlərin həlli ilə bağlı təşəbbüslə çıxış edir. Azərbaycan Milli Məclisində ombudsmanın xeyli təklifini müzakirə etmişik. Azərbaycanda 1990-cı illərdə, müstəqilliyin ilk illərində insan hüquq və azadlıqları sahəsində bir sıra problemlər mövcud idi. Həmin problemlər tez bir zamanda aradan qaldırıldı, insan hüquq və azadlıqları sahəsində mühüm işlər görüldü”, - deyə Milli Məclisin Sədr müavini qeyd edib.

Bahar Muradova bildirib ki, 18 iyun tarixi bütün ölkələrdə İnsan Hüquqları Günü kimi qeyd olunur. Azərbaycanda da bu gün 2007-ci ildən Prezident İlham Əliyevin sərəncamına əsasən qeyd edilir.

Bu gün dünyada milyonlarla qaçqının olduğunu diqqətə çatdıran Bahar Muradova qeyd edib ki, hər bir dövlət, xalq üçün təhlükəsiz mühit yaradılmalıdır. Təəssüflər olsun ki, beynəlxalq təşkilatların məsuliyyətsizliyi ucbatından bu problemlər həll edilmir. İnsanlar ayrı-seçkiliyə məruz qalırlar. Beynəlxalq ictimaiyyət hər bir insan üçün təhlükəsiz yaşamağa şərait yaratmalıdır və hər bir insan bundan bəhrələnməlidir. Hər kəs insan hüquqlarını pozanlara qarşı vahid cəbhədə mübarizə aparmalıdır.

BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi və İnkişaf Proqramının rezident nümayəndəsi Qulam İshaqzai bildirib ki, Azərbaycan Konstitusiyasında insan hüquq və azadlıqlarına geniş yer verilib. O, bu il Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100 illiyinin qeyd olunduğunu, Şərqdə qadınlara ilk dəfə seçki hüququnun məhz Azərbaycanda verildiyini söyləyib.

Bildirilib ki, BMT-nin insan hüquqları ilə bağlı doqquz sənədindən səkkizi Azərbaycanda ratifikasiya olunub. BMT ilə Azərbaycan arasında insan hüquqlarının qorunması istiqamətində səmərəli əməkdaşlıq qurulub. Qaçqın və məcburi köçkünlərlə bağlı silsilə tədbirlər keçirilir. Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin qəbul edildiyi yetmiş il ərzində insan ləyaqətinin möhkəmlənməsi istiqamətində mühüm işlər görülüb. Biz Azərbaycanda davamlı inkişaf məqsədlərinin həyata keçirilməsi üçün mühüm işlər görürük və görəcəyik.

Açılışdan sonra konfrans işini plenar iclasla davam etdirib.

Plenar iclasdan sonra konfrans işini sessiyalarla davam etdirib.

Konfrans işini iyunun 21-də başa çatdıracaq. Yekunda Bakı Bəyannaməsi qəbul olunacaq.

# Azərbaycan milli azlıqların müdafiəsi ilə bağlı bütün öhdəliklərini yerinə yetirir

Strasburqda Xorvatiyanın Avropa Şurasının Nazirlər Komitəsinə sədrliyi çərçivəsində “Milli azlıqların müdafiəsi haqqında” Çərçivə Konvensiyası və “Regional dillər və ya azsaylı xalqların dilləri üzrə Avropa Xartiyası”nın qüvvəyə minməsinin 20-ci ildönümü münasibətilə yüksək səviyyəli konfrans keçirilib.

AZƏRTAC xəbər verir ki, yüksəkvəzifəli hökumət rəsmilərinin, o cümlədən nazirlərin, bir sıra beynəlxalq təşkilatların nümayəndələrinin, həmçinin Çərçivə Konvensiyasının Məşvərətçi Komitəsinin və “Regional dillər və ya azsaylı xalqların dilləri üzrə Avropa Xartiyası”nın Ekspertlər Komitəsinin üzvlərinin iştirak etdikləri konfransda Avropa Şurasına üzv ölkələrdə milli azlıqların müasir dövrdə üzləşdiyi məsələlər müzakirə edilib.

Konfransda ölkəmizi Azərbaycan Respublikası Prezidenti Administrasiyasının millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Etibar Nəcəfov təmsil edib. O, “Multilinqual cəmiyyətdə milli azlıqların dilləri və təhsili” adlı sessiyada “Azərbaycan Respublikasında azsaylı xalqların dilləri və təhsili” mövzusunda çıxış edib.

Etibar Nəcəfov Azərbaycanın 2000-ci il 16 iyun tarixli qanunla ratifikasiya etdiyi Avropa Şurasının “Milli azlıqların müdafiəsi haqqında” Çərçivə Konvensiyasının milli azlıqların dillərində təhsil sahəsi ilə bağlı öhdəliklərin uğurla həyata keçirilməsi barədə məlumat verib. O, Azərbaycanın multikulturalizm siyasəti çərçivəsində ölkədə yaşayan azsaylı xalqların sosial, iqtisadi və mədəni məsələlərinin yüksək səviyyədə həll olunduğunu qeyd edərək burada milli azlıqların etnik-mədəni dəyərlərinin qorunması istiqamətində dövlət tərəfindən görülmüş mühüm işlərdən bəhs edib.

Şöbə müdiri konkret faktlara əsaslanaraq Azərbaycanda milli azlıqların dillərində 377 ibtidai və ümumtəhsil məktəbinin fəaliyyət göstərməsi haqqında konfrans iştirakçılarına məlumat verib. O, ölkədə 18 ümumtəhsil məktəbində tədrisin sırf rus dilində aparıldığını, 326 ümumtəhsil məktəbinin rus bölməsində isə 90 min şagirdin bu dildə təhsil aldığını tədbir iştirakçılarının diqqətinə çatdırıb. Bundan başqa, Azərbaycanda yəhudi, ləzgi, talış, avar, saxur, udi, kürd, xınalıq və digər azsaylı xalqların dillərində məktəblərin fəaliyyət göstərməsindən bəhs edən Etibar Nəcəfov milli azlıqların öz dillərində tədris materialları ilə təmin olunması sahəsində dövlətin gördüyü işlərdən də söhbət açıb, həyata keçirilən bu fəaliyyətlərin milli azlıqların cəmiyyətdə inteqrasiyası proseslərinə müsbət təsir göstərdiyini vurğulayıb.

Prezident Administrasiyasının rəsmisi Azərbaycan hökumətinin milli azlıqlar üçün təhsil sahəsində apardığı siyasətin Avropa Şurasının “Milli azlıqların müdafiəsi haqqında” Çərçivə Konvensiyasının 14-cü maddəsinə, həmçinin BMT-nin “Milli və ya etnik, dini və dil azlıqlarına mənsub olan şəxslərin hüquqları haqqında Bəyannamə”sinin 4-cü maddəsinin 3-cü və 4-cü bəndlərinə uyğun olduğunu konfrans iştirakçılarının diqqətinə çatdırıb.

# Konfransda Konstitusiya məhkəmələrinin rolu ilə bağlı fikir mübadiləsi aparılıb

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayevin başçılıq etdiyi nümayəndə heyəti Avropa Konstitusiya Məhkəmələrinin Konfransı Təşkilatının sədrlərinin iclasında, habelə Çexiyanın və Slovakiyanın birgə Konstitusiya məhkəmələrinin 25 illiyinə həsr edilmiş beynəlxalq konfransda iştirak etmək üçün Çex Respublikası Konstitusiya Məhkəməsinin sədri Pavel Rixetskinin dəvəti ilə Praqada səfərdə olub.

Konstitusiya Məhkəməsinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Avropa Konstitusiya məhkəmələri sədrlərinin iclasında bu qurumun Nizamnaməsinə təklif olunan dəyişikliklərin layihəsi, icraata qəbul edilmiş işlər üzrə Konstitusiya məhkəmələri arasında məlumat mübadiləsi, beynəlxalq hüquq normalarının məhkəmə qərarlarındakı yeri və digər hüquqi yanaşmalar məsələləri müzakirə edilib.

Keçirilmiş geniş konfransda müasir konstitusiya nəzarəti institutunda nəzəri yanaşmaların tətbiqi, konstitusiya ədalət mühakiməsinin inkişafı, milli qanunvericiliyin təkmilləşdirilməsində Konstitusiya məhkəmələrinin rolu və digər məsələlərlə bağlı məruzələr dinlənilib, fikir mübadiləsi aparılıb. Konfransda Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin qərarlarında əks olunmuş hüquqi mövqelər, tətbiq edilmiş müasir hüquqi yanaşmalar və prinsiplər barədə məlumat verilib.

Azərbaycan nümayəndə heyəti səfər çərçivəsində bir sıra xarici ölkələrin Konstitusiya məhkəmələrinin sədr və hakimləri ilə görüşlər keçirilib, məhkəmə-hüquq əməkdaşlığı məsələləri barədə müzakirələr aparıb.

Tədbirlərdə, həmçinin Azərbaycan Respublikasının Çex Respublikasındakı səfiri Fərid Şəfiyev iştirak edib.

# Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin nümayəndə heyəti ilə görüş

İyunun 20-də Hesablama Palatasının sədri Vüqar Gülməmmədovun Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin (GIZ) Cənubi Qafqazda Dövlət Maliyyə İdarəetməsi layihəsinin missiyası ilə görüşü olmuşdur.

Görüşdə Vüqar Gülməmmədov və Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin (GIZ) nümayəndə heyəti - Proqram üzrə Qrupun rəhbəri Jens Peterson Tumser və ekspert Kristian Doerinq layihə çərçivəsində proqramın məqsədləri - səmərəlilik və hesabatlılıq sahələrində dövlət maliyyə sub sistemlərinin Avropa və beynəlxalq standartlara uyğunlaşdırılması, fərdi tərəfdaş təşkilatların potensialını gücləndirməklə yanaşı, büdcə sistemindəki təşkilatlar arasındakı qarşılıqlı əlaqə, vergi siyasəti və vergi idarəetməsi sahələrində avtomatik məlumat mübadiləsi, vergi audit funksiyası, kütləvi informasiya vasitələri və sosial tərəfdaşlarla ünsiyyət məsələlərini müzakirə etmişlər.

Hesablama Palatasının sədri Vüqar Gülməmmədov Palatanın əməkdaşlığa hazır olduğunu bildirmiş, Palatanın cari fəaliyyəti barədə məlumat vermişdir.

Görüşdə həmçinin 2020-ci ildən sonra bu layihənin davamı kimi yeni layihə və bu çərçivədə Palata ilə əməkdaşlıq imkanları, maliyyə, uyğunluq və səmərəlilik auditləri, IT auditinin tətbiqi və auditin avtomatlaşması sahəsində müvafiq dəstəyin göstərilməsinə hazırlıq və bu istiqamətlərdə təklif və şərhlər, gələcək müvafiq danışıqlar müzakirə mövzusu olmuşdur.

***“Azərbaycan”***

# Əsas hədəf işğal olunmuş torpaqları azad etmək və qaçqın düşən vətəndaşları öz yurd-yuvalarına qaytarmaqdır

İyunun 20-də Bakıda Ümumdünya Qaçqınlar Günü ilə bağlı tədbir keçirilib. AZƏRTAC xəbər verir ki, Beynəlxalq Muğam Mərkəzində təşkil edilən tədbirin iştirakçıları əvvəlcə qaçqın və məcburi köçkünlərin həyatından bəhs edən fotosərgiyə baxıblar. Sonra mövzu ilə bağlı tamaşa nümayiş olunub.





Açılış nitqi ilə çıxış edən BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının Azərbaycandakı nümayəndəliyinin rəhbəri Furio De Angelis hazırda dünyada mövcud olan qaçqın və məcburi köçkün probleminə toxunaraq bildirib ki, təmsil etdiyi qurum könüllü yardımlar vasitəsilə bütün dünyada qaçqınlara kömək göstərir. Qeyd edib ki, bu il dünyada öz yurd-yuvalarından didərgin düşən insanların sayı ən yüksək həddə çatıb. Bu, bizi problemi yaradan səbəblər barədə dərindən düşünməyə vadar edir. Məsələnin həlli üçün bütün dövlətlər və aidiyyəti təşkilatlar birgə səy göstərməlidirlər. Azərbaycan qaçqın və məcburi köçkün məsələsinin həlli istiqamətində böyük səylər göstərir. Azərbaycan dünyadakı qaçqın probleminin həllinə töhfə vermək üçün böyük imkanlara malikdir. Azərbaycan öz ölkələrindən qaçan və buraya sığınan insanlara himayə göstərmək imkanlarına malik bir dövlətdir və bu imkanlarından geniş şəkildə istifadə edir. Furio De Angelis Azərbaycan xalqını və dövlətini Cocuq Mərcanlıya böyük qayıdışa görə təbrik edib.

Sonra BMT-nin qaçqınlar üzrə ali komissarı Filippo Qrandinin videomüraciəti olub.

Azərbaycan Respublikası Baş nazirinin müavini Əli Əhmədov çıxış edərək bildirib ki, 30 il bundan əvvəl ölkəmizdə yaranan qaçqın və məcburi köçkün problemi bu gün bütün dünyanı narahat edir. Bu gün dünyada 68 milyondan çox qaçqın və məcburi köçkün var. Bütün dünyanı ən çox narahat edən bu problemin həlli olmalıdır. Bütün dünyada olan qaçqın problemi Azərbaycandakı vəziyyətdən daha yüngüldür. Azərbaycanda bu problem daha acınacaqlıdır. Bu gün dünyada dövlətlər, siyasətçilər bu problemin həlli üçün səy göstərirlər. Ayrı-ayrı ölkələr bununla bağlı yardımlar ayırırlar. Ancaq görünür dünyada ədalət pozulub və qaçqın və məcburi köçkün problemi yaranıb. Əgər ədalət pozulmasaydı, bu problem bu qədər acınacaqlı olmazdı. Ermənistanın etnik təmizləmə siyasəti nəticəsində bir milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşəndən sonra başa düşmək lazım idi ki, bu, bir ölkə ilə yekunlaşmayacaq. Lazımi diqqətin olmaması səbəbindən vaxtilə Azərbaycanı çətin vəziyyətə salan bu problem indi bütün dünyanı silkələyir. Bu gün bu problemi yaradan səbəblər araşdırılmalı, məsələnin həlli istiqamətində birgə səylər göstərilməlidir. Azərbaycan dövlətinin böyük səyləri nəticəsində bu gün ölkəmizdə qaçqınların və məcburi köçkünlərin sosial vəziyyəti xeyli yaxşılaşıb. Lakin hələ də onlar öz yurd-yuvalarına qayıtmayıblar. Düşünürəm ki, Azərbaycanın haqq səsini vaxtilə eşitməyənlər bu gün bizim çağırışımızı dinləyəcəklər. Bizim hədəfimiz işğal olunmuş torpaqlarımızı azad etmək və qaçqın düşən vətəndaşlarımızı öz yurd-yuvalarına qaytarmaqdır.

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev deyib ki, bugünkü tədbirin keçirilməsində əsas məqsəd bu problemin nə qədər vacib olduğunu bir daha diqqətə çatdırmaqdır. Azərbaycanda qaçqın və məcburi köçkün problemi ilə bağlı əsaslı işlər görülür. Lakin bu problem bütün dünyada böyük narahatlıq yaradır. Aidiyyəti təşkilatlar qaçqın və məcburi köçkün probleminin həlli ilə bağlı birgə çalışmalıdırlar.

Dövlət Miqrasiya Xidmətinin rəisi Vüsal Hüseynov çıxışında bildirib ki, statistikaya baxdıqda görünür ki, bu məsələ həqiqətən də qlobal problemdir və ciddi yanaşma tələb edir. Biz bu problemin getdikcə dərinləşdiyini görürük. Buna görə yeni işlər görmək lazımdır. Böyük dövlətlər ikili standartları və məsələyə laqeydliyi aradan qaldırmalıdırlar. Azərbaycan bu məsələdə bir nümunədir. Lakin məsələ təkcə qaçqın və məcburi köçkünlərin sosial problemlərinin aradan qaldırılması ilə bitmir. Bu insanlar öz doğma torpaqlarına qayıtmalıdırlar.

Tədbir bədii hissə ilə davam edib.

# *Əli ƏHMƏDOV:* "Qeyri-rəsmi məşğulluğun qarşısının alınması istiqamətində müəyyən irəliləyişlər əldə olunub"



Azərbaycanda qeyri-rəsmi məşğulluğun qarşısının alınması istiqamətində müəyyən irəliləyişlər əldə edilib. AZƏRTAC xəbər verir ki, bu barədə iyunun 20-də Nazirlər Kabinetində keçirilən Əmək Münasibətlərinin Tənzimlənməsi və Koordinasiyası Komissiyasının beşinci iclasında Baş nazirin müavini, komissiyanın sədri Əli Əhmədov deyib.

İclasda "Azərbaycan Respublikasında qeyri-rəsmi məşğulluğun qarşısının alınmasına dair Tədbirlər Planı"nda əks olunmuş tapşırıqların icrası məqsədilə həyata keçirilmiş tədbirlər, əldə edilmiş nəticələr və qarşıda duran vəzifələr müzakirə olunub.

Əli Əhmədov bildirib ki, ötən müddətdə ölkədə qeyri-rəsmi məşğulluğun qarşısının alınması istiqamətində, o cümlədən işəgötürənlər və işləyənlər arasında münasibətlərdə müəyyən irəliləyişlər əldə edilib. Bu ilin beş ayı ərzində Əmək Müqaviləsi Bildirişi üzrə Elektron İnformasiya Sistemində (ƏMBEİS) artım 43 min 434 əmək müqaviləsi təşkil edib ki, bunlardan 9 min 560-ı Naxçıvan Muxtar Respublikasındadır. Keçən ilin eyni dövründə isə bu göstərici 21 min 506 müqavilə təşkil edib. Beləliklə, cari ildə əmək müqavilələri üzrə artım tempinin müsbət saldosunun 2 dəfədən çox artması müşahidə olunub.

Baş nazirin müavini qeyd edib ki, 2017-ci ilin əvvəlinə 1 milyon 265 mindən çox müqavilə, ötən il iyunun 1-dək 1 milyon 287 mindən artıq müqavilə bağlanıb. Bu il yanvarın 1-i vəziyyətinə isə 1 milyon 310 mindən çox müqavilə, iyunun 1-dək 1 milyon 354 mindən çox müqavilə bağlanıb. Bağlanan əmək müqavilələri üzrə ən çox artım topdan və pərakəndə satış, eləcə də tikinti sahələrində olub. Bu il mayın 1-nə ölkədə muzdla çalışan işçilərin sayı ötən ilin eyni dövrü ilə müqayisədə 1,2 faiz artaraq 1 milyon 538,2 min nəfərə çatıb.

Komissiyanın sədri bildirib ki, komissiya qarşısında 36 bənd üzrə işlərin yerinə yetirilməsi vəzifə kimi qoyulub. Bu tədbirlərdən 12-si tam, 8-i isə qismən icra edilib. Digər vəzifələrin icrası üzrə işlər davam etdirilir.

Sonra "Azərbaycan Respublikasında qeyri-rəsmi məşğulluğun qarşısının alınmasına dair Tədbirlər Planı"ndan irəli gələn tapşırıqların icrası ilə bağlı komissiya yanında yaradılan işçi qrupların rəhbərlərinin məruzələri dinlənilib.

İclasa yekun vuran Baş nazirin müavini, Əmək Münasibətlərinin Tənzimlənməsi və Koordinasiyası Komissiyasının sədri Əli Əhmədov deyib ki, qeyri-rəsmi məşğulluğun aradan qaldırılması istiqamətində görülən işlərlə əlaqədar mütəmadi olaraq Azərbaycan Respublikasının Prezidentinə məlumat veriləcək.

# Azərbaycanın qədim diyarındakı zəngin mədəni irsə yüksək qiymətin təzahürü

*Əvvəli 1-ci səh.*









Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Haçadağın fotoşəklini İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatının Baş direktoru Əbdüləziz Osman əl-Tuveycriyə, Batabatın fotoşəklini isə Beynəlxalq Türk Mədəniyyəti Təşkilatının baş katibi Düsen Kaseinova hədiyyə edib.

"Qurani-Kərim"in tilavəti ilə başlayan tədbirdə Naxçıvan Dövlət Televiziyasının hazırladığı "İslam Mədəniyyətinin Paytaxtı Naxçıvan" televiziya filminə baxış olub.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, Naxçıvan şəhərinin 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı elan edilməsi ilə əlaqədar yaradılmış Təşkilat Komitəsinin sədri Vasif Talıbov Azərbaycanın Naxçıvan Muxtar Respublikasının paytaxtı Naxçıvan şəhərində əlamətdar tarixi günlərin yaşandığını bildirərək tədbir iştirakçılarını salamlayıb və deyib: "İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin mədəniyyət nazirlərinin 2009-cu ilin oktyabr ayında Bakı şəhərində keçirilmiş altıncı konfransında Naxçıvan şəhəri 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı elan olunmuşdur".

Ali Məclisin Sədri Naxçıvan şəhərinin 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı seçilməsi təşəbbüsünə və dəvəti qəbul edib açılış tədbirində iştiraka görə qonaqlara təşəkkürünü bildirib və qeyd edib ki, İslam ölkələri ilə əməkdaşlığa xüsusi diqqət yetirən ümummilli lider Heydər Əliyev deyirdi: "İslam dini sülh, qardaşlıq və əməkdaşlıq dinidir... Bu, tarixboyu Azərbaycanda öz əməli ifadəsini tapmışdır". Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev də dini-mənəvi dəyərlərimizin yaşadılmasına xüsusi diqqət yetirir və dünyaya dövlət-din münasibətlərinin tənzimlənməsi modelini təqdim edir. Ölkəmizdə mövcud olan dini dözümlülük və tolerantlıq, multikultural dəyərlər nümunə kimi götürülür.

Belə bir şəraitdə Naxçıvanın İslam Mədəniyyətinin Paytaxtı seçilməsi barədə qərarın qəbul olunması tarixi hadisədir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin qeyd etdiyi kimi, "Həmin qərar sivilizasiyalararası dialoqa mühüm töhfələr verən Azərbaycanın bu qədim diyarındakı zəngin mədəni-mənəvi irsə yüksək qiymətin təzahürüdür. Tarixən yaxın və orta Şərqin əzəmətli şəhərlərindən biri kimi Naxçıvan bütün böyük keçmişi ərzində islam mədəniyyətinin çoxəsrlik nailiyyətlərinin layiqincə qorunub yaşadılmasında özünəməxsus rol oynamışdır" .

Ali Məclisin Sədri deyib: Beş min illik şəhər mədəniyyətinə malik olan Naxçıvan tarixən təktanrıçılığın mərkəzlərindən biri olub. İslamaqədərki dövrdə burada yaşayan Azərbaycan türkləri dini etiqad, adət-ənənə və mənəvi dəyərlər baxımından İslam dininə yaxın idilər. Ona görə də yerli əhali İslam dinini 653-cü ildə könüllü qəbul etmişdir. İslam elm, mədəniyyət, sülh və mərhəmət dinidir; mənəvi saflığa və ədalətə çağırışdır. Dünya sivilizasiyasının formalaşıb inkişaf etməsində islam təhsilinin, elminin və mədəniyyətinin böyük rolu vardır. Bunun sayəsində qədim Naxçıvan şəhərində də zəngin tarixi-mədəni irs formalaşmışdır. Möminə xatun, Gülüstan, Qarabağlar türbələri, buzxana və hamamlar, qədim məscidlər və digər abidələr bu torpaqda yaradılmış çoxsaylı türk-islam mədəniyyətinin dövrümüzə qədər gəlib çatmış nadir nümunələridir. Bütün bunlar onu göstərir ki, İslam mədəniyyəti güclü dövlətçilik, sülh və əmin-amanlıq olan yerdə inkişaf etmiş, böyük yaradıcı gücə malik olmuşdur. Naxçıvanda türk-islam mədəniyyəti on ikinci əsrdə - Azərbaycan Atabəylər dövləti zamanında özünün intibah mərhələsinə çatmışdır. Bu dövrdə yaşayıb-yaradan memar Əcəmi Əbubəkir oğlu Naxçıvaninin sənəti nəinki Azərbaycan, ümumilikdə Yaxın Şərq və İslam memarlığında yeni bir məktəbin əsasını qoymuşdur.

Ali Məclisin Sədri bir daha iştiraklarına görə qonaqlara təşəkkürünü bildirib, "İslam Mədəniyyətinin Paytaxtı Naxçıvan - 2018" tədbirlərini açıq elan edib.

İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatının Baş direktoru Əbdüləziz Osman əl-Tuveycri çıxış edərək deyib: "Bu möhtəşəm tədbirdə sizinlə olmaqdan böyük məmnuniyyət hissi duyuruq. Naxçıvan 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı seçilmişdir. İlk növbədə mən Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə minnətdarlığımı bildirmək istərdim. O öz ölkəsinə və eyni zamanda, İslam təşəbbüslərinə böyük dəstək verir. Həmçinin səmimi-qəlbdən və ürəkdən minnətdarlıq hissi ilə Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin Sədri cənab Vasif Talıbova da çox sağ ol demək istərdim. Bu cür mükəmməl təşkilatçılıq, təbii ki, danılmazdır.

İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatı tərəfindən həyata keçirilən bu proqram üzv dövlətlərin də birlikdə koordinasiyası çərçivəsində icra edilir və ən önəmli mədəni layihələri, sivilizasiya və bəşəri dəyərlərin İslama bağlılığını nümayiş etdirir. Bu paytaxtların seçilməsi dini fəlsəfə çərçivəsində həyata keçirilir. Burada konkret xüsusi bir ölkə meyarları vardır. Seçilən paytaxt zəngin tarixə sahib olmalı, mədəni baxımından və eyni zamanda, islam mədəniyyətinə və bəşəri dəyərlərinə, insani dəyərlərə töhfə verməlidir. Bu gün bəşəriyyətin fərdi çağırışlarla üzləşməsinin şahidi oluruq. Ona görə də bəzi mədəni və bəşəriyyətlə bağlı xüsusi proqramlar icra olunur. Bu proqram da tarixi yaddaşı bir növ din vasitəsilə insanlara qaytarmağa çalışır. Yəni keçmişi və hazırkı dövrü bir-birinə bağlamaq cəhdidir. Beləliklə, burada məqsəd cəmiyyətdə xüsusi mexanizmlər vasitəsilə yaradıcılıq, elm və digər sahələrə əlavə töhfə verməkdən ibarətdir. ISESCO ümumdünya sülh, harmoniya, intellektual yaradıcılıq, eyni zamanda, elm və araşdırmalar vasitəsilə bu işə töhfə verir. Həyata keçirilən proqramlar fərqli və çeşidli olur. İl ərzində ISESCO tərəfindən qeyd olunan proqramlar çərçivəsində müxtəlif tədbirlər keçiriləcək, ekstremizmə və islamafobiyaya qarşı mübarizə aparılacaqdır.

Mən ilk dəfədir Azərbaycanın Naxçıvan Muxtar Respublikasına gəlirəm. Naxçıvanı kəşf etdikcə belə bir qənaətə gəlirəm ki, bura cənnətdir. İslam tarixinin bir parçası olan Naxçıvan İslamın olduğu kimi təbliğinə öz töhfəsini verir. Azərbaycanın bu gözəl guşəsində olmağımızdan məmnunluq duyuruq. Buradan bütün dünyaya çatdırmaq istəyirik ki, İslamın terrorizmlə eyniləşdirilməsi qəbuledilməzdir. Fürsətdən istifadə edərək bildiririk ki, bilikli, bacarıqlı və konstruktiv yanaşma vasitəsilə insanlara İslamın gerçək üzünü və gözəlliyini göstərəcəyik".

Açılış tədbirində çıxış edən Azərbaycan Respublikasının mədəniyyət naziri, Naxçıvan şəhərinin 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı elan edilməsi ilə əlaqədar yaradılmış Təşkilat Komitəsi sədrinin müavini Əbülfəs Qarayev deyib: "Bu gün tarixi bir hadisənin - Naxçıvanın 2018-ci il üçün İslam Mədəniyyəti Paytaxtı elan edilməsinin işığına toplaşmışıq. Naxçıvan bu coğrafiyanın ən müqəddəs torpağıdır və onun mədəniyyəti, tarixi Azərbaycan xalqının qədim sivilizasiyasının beşiklərindən biri olduğunu nümayiş etdirir. Tarixən Yaxın və Orta Şərqin əzəmətli şəhərlərindən biri kimi Naxçıvan bütün böyük keçmişi ərzində İslam mədəniyyətinin çoxəsrlik nailiyyətlərinin layiqincə qorunub yaşadılmasında özünəməxsus rol oynamışdır. Bu torpaqda 1000-dən çox tarixi abidənin mövcud olması və onlardan 60-a yaxın abidənin dünya əhəmiyyətli olması öz-özlüyündə Naxçıvanın qədim tarixinin göstəricisidir".

Sonda Naxçıvan Dövlət Filarmoniyasında konsert olub.

"Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı-2018"in açılış tədbiri "Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı-2018"in rəsmi internet səhifəsi olan imp.nakhchivan.az saytında, Naxçıvan Dövlət Televiziyasında və "Nuhçıxan" İnformasiya Agentliyinin nuhcixan.az saytında canlı yayımlanıb.

* * *

Həmin gün "Araz" Dövlət Qəbul Evində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri adından "Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı-2018"in açılış tədbirində iştirak üçün Naxçıvana gəlmiş qonaqların şərəfinə rəsmi ziyafət verilib.

# Korrupsiyaya qarşı mübarizə sahəsində beynəlxalq əməkdaşlıq uğurla davam etdirilir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən həyata keçirilən islahatlar çərçivəsində ölkəmizdə beynəlxalq standartlar səviyyəsində mütərəqqi antikorrupsiya qanunvericiliyi formalaşdırılmaqla yanaşı, respublikamızın bu sahədə beynəlxalq əlaqələri daim diqqət mərkəzində saxlanılır.

Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan Respublikası baş prokurorunun müavini - Baş Prokuroru yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyevin başçılıq etdiyi nümayəndə heyəti əvvəlcədən razılaşdırılmış Anlaşma Memorandumunun imzalanması məqsədilə iyunun 17-18-də İran İslam Respublikasının paytaxtı Tehranda səfərdə olub.

Səfər çərçivəsində Kamran Əliyev ilə qonşu ölkənin Baş Təftiş Təşkilatının sədri Nasir Seracın görüşündə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən məhkəmə-hüquq islahatları, antikorrupsiya sahəsində görülən işlər, eləcə də bu sahədə ixtisaslaşmış qurumlar olan Korrupsiyaya Qarşı Mübarizə üzrə Komissiya və Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin fəaliyyət istiqamətləri və strukturu barədə ətraflı məlumat verilib, "ASAN xidmət" mərkəzlərinin uğurlu fəaliyyətindən danışılıb.

Naser Serac 2017-ci ildə Azərbaycan Respublikasında səfərdə olarkən ölkəmizdə həyata keçirilən geniş quruculuq işləri, o cümlədən korrupsiyaya qarşı mübarizə sahəsində qətiyyətli tədbirləri yüksək qiymətləndirib. O, təmsil etdiyi qurumun bu sahədə Azərbaycanın müvafiq dövlət qurumları ilə birgə səmərəli təcrübə mübadiləsi aparmaqda maraqlı olduğunu diqqətə çatdırıb.

Sonda Azərbaycan Respublikasının Baş Prokuroru yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsi ilə İran İslam Respublikasının Baş Təftiş Təşkilatı arasında korrupsiyaya qarşı mübarizə və onun qarşısının alınması sahəsində Anlaşma Memorandumu imzalanıb.

İmzalanma mərasimindən sonra mətbuat nümayəndələrinin sualları cavablandırılıb.

İyunun 18-də Azərbaycan nümayəndə heyəti ilə İqtisadi Əməkdaşlıq Təşkilatının (ECO) qərargahında qurumun baş katibi Halil Ibrahim Akca arasında görüş keçirilib.

Görüşdə ECO-nun baş katibi ölkəmizin təşkilata verdiyi töhfələri xüsusi vurğulayaraq Bakıda bu quruma üzv dövlətlərin korrupsiyaya qarşı mübarizə qurumlarının rəhbərlərinin və ombudsmanlarının üçüncü iclasının yüksək səviyyəli təşkilinə görə Azərbaycanın siyasi rəhbərliyinə bir daha təşəkkürünü bildirib. O, həmçinin Azərbaycanın ECO-nun Korrupsiya Agentlikləri və Ombudsmanlarının Regional Əməkdaşlıq Mərkəzinə (RCCACO) qoşulmaq qərarından məmnunluğunu ifadə edib.

Həmin gün nümayəndə heyəti ilə İran İslam Respublikasının Məhkəmə və Ədliyyə Qüvvələrinin sədrinin ictimai və cinayətin qarşısının alınması məsələləri üzrə müavini Hakim Ülfət, Maliyyə Monitorinq Xidmətinin rəisi Nasiri Əliabad, iqtisadi işlər və maliyyə nazirinin investisiya, iqtisadi və texniki məsələlər üzrə müavini Məhəmməd Xəzai arasında keçirilmiş görüşlərdə müvafiq olaraq iki ölkənin ədliyyə, məhkəmə və maliyyə qurumlarının fəaliyyəti müzakirə olunub, hüquqi əməkdaşlıq imkanları nəzərdən keçirilib. Görüşlərdə bu sahələrdə Azərbaycanın müsbət təcrübəsinə xüsusi maraq göstərilib.

Azərbaycan Respublikasının nümayəndə heyəti, həmçinin İranın regionlarına səfər edərək Baş Təftiş Təşkilatının bölgələrdəki nümayəndəliklərinin fəaliyyəti ilə yaxından tanış olublar.

Səfər çərçivəsində keçirilmiş görüşlərdə Azərbaycanın İrandakı səfiri Bünyad Hüseynov da iştirak edib.

# "AzerGold" QSC beynəlxalq əlaqələrini inkişaf etdirir

"AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin (QSC-nin) nümayəndə heyətinin Qazaxıstan Respublikasına işgüzar səfəri başlayıb. 19 iyunda "AzerGold" QSC-nin idarə heyətinin sədri Zakir İbrahimovun rəhbərlik etdiyi nümayəndə heyəti Qazaxıstan Respublikasının İnvestisiya və inkişaf nazirliyinin vitse-naziri Timur Toktabayev, "Tau-Ken Samruk" və "Qazgeology" şirkətlərinin rəhbər şəxsləri ilə görüşüb.

Vitse-nazir Timur Toktabayevlə görüşdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə qeyri-neft ixracının təşviqi istiqamətində görülən işlər sayəsində 2004-2017-ci illərdə qeyri-neft ixracının 4 dəfə artdığı və qeyri-neft sektorunun artımında əlvan metal sənayesinin oynadığı rol diqqətə çatdırılıb. Bundan əlavə, görüşdə investisiyaların stimullaşdırılmasında mədən şirkətlərinin rolu, yeraltı sərvətlərdən istifadədə proqnozlaşdırma və şəffaflığın təmin edilməsi, geoloji məlumatın rəqəmsallaşdırılması metodologiyası ətrafında geniş müzakirələr aparılıb, Qazaxıstanın son illər dağ-mədən sənayesinin inkişafı istiqamətində gördüyü silsilə tədbirlər haqqında ətraflı məlumat əldə edilib.



Faydalı qazıntıların prioritet növləri üzrə kəşfiyyat təşəbbüslərini həyata keçirən Qazaxıstanın milli geoloji-kəşfiyyat şirkəti "Qazgeology" və Qazaxıstanın milli dağ-mədən şirkəti olan "Tau-Ken Samruk"un rəhbər şəxsləri ilə görüş çərçivəsində polimetal yataqlarında texnoloji həllər, geoloji-kəşfiyyat işləri, beynəlxalq tərəfdaşların cəlbi istiqamətində görülən tədbirlər, habelə dağ-mədən sənayesində mövcud tendensiyalar və əməkdaşlıq perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

"AzerGold" QSC-nin nümayəndə heyəti 19-22 iyun tarixlərində keçirilən Dünya Dağ-Mədən Konqresində (World Mining Congress) iştirak edib. 49 ölkənin nümayəndələrini qəbul edən beynəlxalq tədbir 1958-ci ildən başlayaraq hər 2-3 ildən bir keçirilir.

Qazaxıstana səfər "AzerGold" QSC-nin beynəlxalq əlaqələrinin inkişaf etdirilməsi siyasəti çərçivəsində baş tutub. Azərbaycanda dağ-mədən sənayesinin kompleks inkişafını hədəfləyən "AzerGold" QSC-nin fəaliyyətində beynəlxalq tərəfdaşlıq əlaqələrin qurulması və inkişaf etdirilməsi prioritet istiqamətlərdən biridir.

***"Azərbaycan"***





*Əvvəli 1-ci səh.*

# NAXÇIVAN - İslam mədəniyyətinin paytaxtı









Ərəb xilafətinin ərazi və idarəçilik iddialarına qarşı mübarizə aparan xürrəmilər hərəkatının Naxçıvanı da əhatə etməsi burada yeni ibadətgahların bir qədər gec salınmasına təsir göstərmişdir. Ona görə də Naxçıvanda qədim totemlərlə bağlı olan pirlər və ziyarətgahlar, xüsusən də Əshabi-Kəf kimi təkallahlılıq mərkəzi ilkin funksiyasını dəyişərək uzun bir əsas islam ibadət yerləri missiyasını həyata keçirmişdir. *Deməli, Naxçıvan türk-müsəlman dünyasında tanrıçılıqdan İslama keçidin əsas mərkəzlərindən biri olmuşdur.*

Naxçıvan qədim türk tayfalarının yaşadığı ərazilərdən biridir. Bizim eranın ikinci əsrində Naxçıvan ərazilərinə gəlmiş hunlar bu ərazilərin daimi sakinləri olan yerli prototürk mənşəli tayfalarla birləşmişdilər. Hunların gəlişini özündə əks etdirən Əbrə-hun-us (Əbrəqunus), Qara-hun (Qarxun) yer adlarının Naxçıvanda daimi yaşayış məskənlərinə çevrilməsi də həmin gəlmə və yerli türk tayfa birləşmələrinin həmrəyliyi ilə əlaqədar baş vermişdir. Az sonra bu tayfa birliklərinin əsasında oğuz qəbilələri formalaşmış və *Naxçıvan İç oğuzun əsas mərkəzlərindən birinə çevrilmişdir.*

"Kitabi-Dədə Qorqud" dastanlarında Naxçıvanla bağlı olan 50-dən çox toponim burada Qalın Oğuz Eli hakimiyyətinin qüvvətli olduğunu göstərir. *Oğuzların dini dünyagörüşündəki tanrıçılıq və İslam amilləri bu tayfaların Naxçıvan ərazilərindəki tanrıçılıqdan İslama qədərki inanclar sisteminin yaşadığını nümayiş etdirir.* Qorqud Atanın və digər oğuz başbilənlərinin Məhəmməd peyğəmbərlə görüşmələrinə dair olan məlumatlar və "Kitabi-Dədə Qorqud" boylarındakı müsəlmanlığa aid ifadələr və bəzi ayinlər Azərbaycanda, xüsusən də Naxçıvanda oğuz tayfalarının tədricən islamı qəbul etdiyini nəzərə çarpdırır. Beləliklə, türk sivilizasiyası ilə İslam dini təliminin sintezi hadisəsi baş vermiş, bu isə öz növbəsində regionda böyük Renessans hadisəsinin formalaşması ilə nəticələnmişdir. XI-XII əsrlərin türk-müsəlman Renessansı Avropadan əvvəl baş tutmuş mükəmməl intibah hadisəsidir.

Azərbaycan intibahının yaratdığı şah əsərlərdə - məsələn, *Əcəmi Naxçıvaninin yaratdığı XİI əsr məşhur Möminəxatun məqbərəsinin memarlıq həllində İslam dini əlamətləri ilə türk düşüncəsinin vəhdətdə ifadə olunması bu sənət əsərinə möhtəşəmlik gətirmişdir.* Belə ki, Möminəxatun məqbərəsinin üz səthində kufi xətlə "Qurani-Kərim"dəki "Yasin" surəsinin həkk olunması, baş tağında isə ərəb əlifbası ilə "Biz gedirik ancaq qalır ruzigar. Biz ölürük, əsər qalır yadigar" kimi müdrik sözlərin yazılması mədəniyyətdəki türk-islam sintezinin ifadəsidir. Bundan başqa, Möminəxatun məqbərəsinin daxilindəki medalyonların qədim türk damğalarını, içərisindəki yazıların isə İslam tarixi adlarını əks etdirməsi də artıq *XİI əsrdə İslam sivilizasiyasının yeni tipli milli mədəniyyət yaratdığını sübut edir.* Dövrün təhsil sistemində də İslam dini ilə yanaşı, dünyəvi elmlərin də öyrədilməsi təmin edilmişdir.

Naxçıvanda XII əsrdə məşhur memar Əcəmi Naxçıvaninin inşa etdiyi möhtəşəm məscidin nəzdində fəaliyyət göstərmiş Ali mədrəsədə dini elmlərlə yanaşı, dünyəvi fənlər: həndəsə, tarix, riyaziyyat, əl kimya, məntiq də tədris olunmuşdur. *Beləliklə, Naxçıvan həm də İslam maarifçiliyinin yüksək elmi səviyyədə təşkil olunduğu mühüm mərkəzlərdən biridir.* Qədim dövrdə və orta əsrlərdə yaşayıb-yaratmış Naxçıvandan çıxan alimlərin demək olar ki, hamısı İslam dinini şərh edən qiymətli əsərlər, tarixi-fəlsəfi traktatlar yazmışlar.

Nizami Gəncəvinin müasiri və dostu olmuş Əbubəkr ibn Xosrovun (XII əsr) "Munisnamə" əsərində qafiyəli nəsr nümunəsi olan şeirlərlə bərabər, dini hədislər və rəvayətlərlə toplanılmışdır. Əslən Naxçıvandan olan Nəsirəddin Tusinin (1201-1274) yaratdığı Marağa Rəsədxanasında dini elmlərlə dünyəvi elmlər, xüsusən təbiət elmləri və dəqiq elmlər birlikdə öyrənilmiş, hər iki istiqamətdə qiymətli əsərlər yaradılmışdır. Mədrəsələrdə dərslik kimi istifadə olunan "Əxlaq-Nasiri" əsərində ibrətamiz dini hekayələr öz əksini tapdığı kimi, "Zic-Elxani" ("Elxani cədvəlləri"), "Üstürlab" ("Astrologiya") kitablarında dəqiq və dünyəvi elmlərə dair problemlərdən yüksək elmi səviyyədə bəhs olunmuşdur. Nəsirəddin Tusinin "elm ölkəsinin şahı" adlandırılması onun bütün Şərqdə elmdə böyük şöhrət qazandığını göstərir.

XIII əsrdə yaşayıb-yaratmış Həsən ibn Ömər Naxçıvani islam dünyagörüşü haqqında yazdığı əsərlərinə görə dünyada "Allahın fikrinə vaqif olan", "şeyxlər sülaləsinin sonuncusu" olan məşhur alim kimi qəbul edilmişdir. Baba Nemətullah Naxçıvaninin "Qurani-Kərim"ə yazdığı şərhlər bütün müsəlman dünyasında mükəmməl dini traktatlar olaraq yüksək qiymətləndirilmişdir. Əlaəddin Əbu Abdulla Naxçıvani "Qurani-Kərim"in məşhur bəlağətçisi və adlı-sanlı islam hüququ mütəxəssisi kimi tanınmışdır. XVI əsrin tanınmış elm adamlarından olan Xacə Ətiq Ordubadi Məşhəddə məsul dini vəzifə daşımış, Şahruq mədrəsəsində dini fənləri tədris etmişdir. XVII əsrdə İbrahim ibn Zeynəddin Naxçıvani fiqh - şəriət elmləri üzrə dövrünün tanınmış alimlərindən biri olmuşdur.

Naxçıvan ərazisində XVII-XVIII əsrlərdə müxtəlif yerlərdə yaranmış müsəlman epiqrafik abidələri burada İslam mədəniyyətinin artıq geniş yayıldığını müşahidə etməyə imkan verir. Həmin kitabələrdə dini yazılarla yanaşı, bəzi tarixi məlumatların da əks etdirilməsi epiqrafik abidələrin mənbələrə çevrilməsini şərtləndirmişdir.

Bütün bunlar *Naxçıvan ərazisində İslam dininin fanatizm təzahürlərindən uzaq, pak və gerçək şəkildə, həm də elm və mədəniyyət səviyyəsində yaşadılmasını təmin etmişdir. Fikrimizcə, tanrıçılığın ən qədim mərkəzlərindən biri olması, tanrıçılıqdan islama keçidin özünəməxsusluğu və nəhayət, İslam maarifçiliyinə və elminə verdiyi böyük töhfələr Naxçıvanın İslam mədəniyyətinin paytaxtı elan edilməsi üçün əsas amillər hesab edilə bilər. Naxçıvan bəşəriyyətə bəxş etdiyi elmi-mənəvi sərvətlərlə türk-islam mədəniyyətinin əsas mərkəzlərindən biri kimi qəbul olunur.*

Məlum olduğu kimi, Naxçıvan şəhərində fəaliyyət göstərən "Açıq səma altında muzey"də Azərbaycan tarixinin ən müxtəlif dövrlərini əks etdirən maddi mədəniyyət nümunələri qorunub saxlanılır və təbliğ olunur. Lakin fikrimizcə, *Naxçıvan diyarı başdan-başa dünyanın ən möhtəşəm memarlıq muzeyidir.* Ərazi etibarilə kiçik olmasına baxmayaraq, dünya səviyyəli, ölkə və yerli əhəmiyyət kəsb edən abidələrin sayına, səviyyəsinə, özünəməxsusluğuna görə, Naxçıvan diyarı ilə müqayisə edilə biləcək regionlar yer kürəsində çox deyildir.

Böyük memar Əcəmi Naxçıvaninin yaratdığı Naxçıvan şəhərindəki XII əsrə aid *Möminəxatun məqbərəsi Azərbaycanın Tac Mahalıdır.* Məşhur rus sənətşünas akademiki M.Alpatov Möminəxatun abidəsini Nizami Gəncəvinin "Xəmsə"si ilə müqayisə etmişdir. *Möminəxatun abidəsi Azərbaycan memarlığının daş "Xəmsə"sidir.* Əcəmi Naxçıvani sadəcə memar deyildir, Şərq memarlıq məktəbinin banisidir. Əcəmi Naxçıvani Azərbaycan memarlığının Leonardo da Vinçisidir. Fikrimizcə, Naxçıvandakı Möminəxatun məqbərəsi, Yusif Küseyir, Gülüstan və Qarabağlar türbələri UNESCO-nun dünya mədəni irs siyahılarında yer tutmağa və beynəlxalq turizm obyektləri kimi təbliğ edilməyə layiqdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Naxçıvan şəhərinin 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı elan edilməsi ilə əlaqədar Təşkilat Komitəsinin yaradılması haqqında"kı 2 iyun 2016-cı il tarixli sərəncamında da "sivilizasiyalararası dialoqa mühüm töhfələr verən", "tarixən Yaxın və Orta Şərqin əzəmətli şəhərlərindən biri" olmuş Naxçıvanın "bütün böyük keçmişi ərzində İslam mədəniyyətinin çoxəsrlik nailiyyətlərinin layiqincə qorunub saxlanılmasında özünəməxsus rol oynadığı" xüsusi olaraq diqqət mərkəzinə çəkilmişdir. *Möhtərəm Prezidentin mühüm tarixi əhəmiyyətə malik olan sərəncamındakı həmin fikirlər həm də Naxçıvanda əsrlər boyu formalaşdırılıb inkişaf etdirilmiş böyük mədəniyyətə dövlət səviyyəsində verilmiş yüksək qiymətin ifadəsi kimi də mühüm əhəmiyyətə malikdir.*

Ümumiyyətlə, *Azərbaycanda türk sivilizasiyası ilə İslam dini dünyagörüşünün sintezi xüsusi bir hadisəni - intibahı yaratmışdır. XİI əsr Azərbaycan intibahı türk-islam renessansı hadisəsidir.*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin həyata keçirdiyi düşünülmüş, məqsədyönlü tədbirlər yeni tarixi epoxada ölkəmizdə müasir intibah səviyyəsinin yaradılmasına tam təminat verir. Əslində XXI əsrdə ölkəmizdə dövlət səviyyəsində həyata keçirilən silsilə İslam həmrəyliyi tədbirləri Azərbaycan miqyasında milli-mənəvi dəyərlər və mədəniyyətlərlə İslam dininin yenidən, fərqli bir səviyyədə çarpazlanması prosesinin getdiyini göstərir. Regionlarda müstəqilliyin başlanğıc illərində məscidlərin tikilməsi dalğasının tədricən məktəblərin və mədəniyyət ocaqlarının inşa edilməsi hərəkatına çevrilməsi, nəticədə hər iki istiqamətin inkişaf etdirilməsi milli intibaha doğru açılan yolların əsas əlamətlərini özündə cəmləşdirir. Bura müstəqillik illərində xüsusilə güclənən folklorşünaslıq, etnoqrafiya, epiqrafika, numizmatika, xalq sənəti sahələri ilə yanaşı, multikulturalizm, dinlərarası dialoq və tolerantlıq, habelə islamşünaslığın da elmi əsaslarla inkişaf etdirildiyini də əlavə etsək, cəmiyyətdə elm, ədəbiyyat və mədəniyyət hadisəsi kimi intibah proseslərinin inkişaf etməkdə olduğunu müşahidə edə bilərik. Üstəgəl, ölkəmizdə tranzit əlaqələrinin geniş şəbəkəsinin yaradılması: Bakı-Tbilisi-Qars, "Şimal-Cənub", "Şərq-Qərb" magistrallarının dövriyyəyə daxil olması intibah proseslərinə ciddi təkan verir. Tranzit əlaqələri iqtisadi inkişafla mədəni inkişaf arasında körpü funksiyasını həyata keçirir.

Aşkar müşahidə olunur ki, Azərbaycanın ayrılmaz üzvi tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında müasir dövrdə milli-mənəvi dəyərlərin sürətli inkişafı ilə İslam dini dünyagörüşünün yenidən çuğlaşması və elmin, məktəbin, universitetlərin fəaliyyətinin genişləndirilməsi yeni intibah proseslərini doğurmuşdur.

*Naxçıvanın Sədərək-Dilucundan Türkiyəyə və oradan da Avropaya, Culfa və Şahtaxtıdan İrana və Şərqə açılan qapıları buradakı mənəvi-mədəni inkişafın zənginləşdirilməsinə münasib meydan açır.* Naxçıvan-Təbriz-Məşhəd qatarının və İstanbul-Naxçıvan-Gəncə, Moskva-Naxçıvan aviareyslərinin davamlı fəaliyyəti də mədəniyyətlərin inteqrasiyasını sürətləndirən amillərdəndir. Klassik intibahdakı antik mədəniyyətə qayıdışı yeni tarixi epoxada milli-mənəvi dəyərlərə dönüş prosesləri əvəz edir. 70 illik sovet rejiminin uzun müddət arxa plana keçirdiyi milli-mənəvi dəyərlərin ölkənin antik sərvəti kimi dirçəldilməsi prosesinin Naxçıvanda geniş miqyas alması yeni intibahda ölkə faktorunu daha da qüvvətləndirir.

İslam mədəniyyətinin paytaxtı miqyasında 2018-ci ildə Naxçıvanda keçirilmiş elmi-mədəni tədbirlər, bərpa olunan və inşa edilən məscidlər və mədəni-tarixi abidələr, keçirilən elmi konfranslar, çap olunan əsərlər, təşkil olunacaq şənliklər çox fərqli və əhəmiyyətli bir dirçəlişin göstəriciləridir. Bu genişmiqyaslı prosesin adı intibahdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev də bu ilin may ayında Naxçıvan səfəri zamanı regionda milli intibaha aparan hərtərəfli inkişaf proseslərinin getdiyini qiymətləndirərək demişdir:

"Naxçıvan Muxtar Respublikası bütün iqtisadi göstəricilərinə görə çox sürətlə inkişaf edən respublikadır. Son 15 il ərzində muxtar respublikanın ümumi daxili məhsulu on dəfəyə yaxın artıbdır. Bu, məncə, dünyada rekord göstəricidir. ...Sosial məsələlərin həlli, tikilən xəstəxanalar, məktəblər, Olimpiya mərkəzləri, mədəniyyət ocaqları... əlbəttə ki, respublikanın potensialını artırır. ...Naxçıvan dəmir yolu ilə Azərbaycanın əsas hissəsi ilə birləşəcək və beləliklə, blokadadan, mühasirədən canını qurtaracaqdır. ...Naxçıvan "İslam Mədəniyyətinin Paytaxtı" kimi şərəfli adı daşıyır. ...Bilirəm ki, bu gözəl hadisə ilə bağlı ...çoxlu qonaqlar gələcəklər, bir daha görəcəklər ki, dünyada belə gözəl məkan var. Gözəl təbiəti, iqlimi, havası, mənzərəsi, binaları və ən önəmlisi isə gözəl insanları olan məkan var. Bu məkanın adı Naxçıvandır".

*Müstəqillik dövründə Naxçıvanın keçdiyi çətin, məsuliyyətli və şərəfli yol hərtərəfli müasir inkişafın parlaq bir nümunəsidir.* Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun yorulmaz fəaliyyəti və böyük əzmi ilə əsaslı şəkildə yenidən qurulan Naxçıvan Muxtar Respublikasının 2017-ci ildə Azərbaycanın iqtisadi rayonları arasında birincilik qazanması bu diyarda baş vermiş böyük inkişafın geniş miqyasını təsəvvür etməyə imkan yaradır.

*Muxtar respublika hazırda Azərbaycanın tərkibində bütün yönləri ilə inkişaf etmiş ictimai-siyasi, iqtisadi-mədəni və elmi mərkəzi kimi nümunə göstərir. Son günlərdə Azərbaycan Əlahiddə Ordusu Naxçıvan birləşmələrinin Şərur rayonunun Danzik kəndi ərazisindəki Qızılqaya yüksəkliyini fəth edərək orada böyük həcmdə torpaqlarımızı işğaldan azad etməsi Naxçıvandakı müasir inkişafın doğurduğu dərin milli iftixar duyğusunu bir daha qüvvətləndirmişdir.*

Əlbəttə, Naxçıvanın İslam Mədəniyyətinin Paytaxtı seçilməsi möhtərəm Prezidentimizin uzaqgörən siyasətinin parlaq bir hadisəsidir. Bu, ölkəmizin bu diyarının sürətli inkişafına təkan verməklə yanaşı, həm də Naxçıvanı dünyaya tanıtmaq, blokadanı bir daha qırmaq, böyük yüksəliş üçün yeni qapılar açmaq məqsədlərinin həyata keçirilməsinə xidmət edən müdrik bir siyasətdir. Heç şübhə yoxdur ki, Naxçıvanda İslam Mədəniyyətinin Paytaxtı tədbirlərinin yüksək səviyyədə keçirilməsi həmin istiqamətlərin hər biri üzrə yeni inkişafa böyük stimul verəcəkdir. Bu, universitetlər, muzeylər, abidələr, gözəlliklər və zəngin təbii sərvətlər diyarı olan Naxçıvana dünyanın hər tərəfindən tələbə və turist axınlarının genişləndirilməsinə, burada iqtisadi və mədəni əlaqələrin sürətlənməsinə özünün real töhfələrini verəcəkdir. Hazırda İslam mədəniyyətinin paytaxtı olmağın real təntənəsini yaşayan Naxçıvan, ümumiyyətlə, hərtərəfli inkişafa malik böyük mədəniyyət paytaxtı kimi dünyanın diqqətini cəlb edəcəkdir.

***İsa HƏBİBBƏYLİ,***
***Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, Milli Məclisin Elm və təhsil komitəsinin sədri, akademik***

# Daxili işlər nazirinin başçılıq etdiyi nümayəndə heyəti İsraildə səmərəli görüşlər keçirib

Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik Ramil Usubovun başçılıq etdiyi nümayəndə heyəti İsrail Dövlətində səfərdə olub. Daxili İşlər Nazirliyinin (DİN) mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iki gün davam edən səfər çərçivəsində Ramil Usubov və onu müşayiət edən şəxslər Təl-Əviv şəhərindəki İsrail Antiterror Mərkəzinin fəaliyyəti ilə tanışlıqdan sonra bu ölkənin Müdafiə Nazirliyinin tabeliyindəki sənaye müəssisələrində də olublar. Burada istehsal edilən müasir texnoloji vasitələrin və məhsulların cinayətkarlıqla mübarizə və ictimai asayişin qorunması sahələrində tətbiqinə dair qonaqlara məlumat verilib.

General-polkovnik Ramil Usubovun başçılıq etdiyi nümayəndə heyəti daha sonra daxili təhlükəsizlik naziri Gilad Erdan və müdafiə naziri Aviqdor Liberman ilə görüşüb.

Qonaqpərvərliyə və səfərin yüksək səviyyədə təşkilinə görə hər iki nazirə təşəkkürünü bildirən Ramil Usubov xalqlarımız arasında əlaqələrin qədim tarixə malik olduğunu, dünyada multikultural dəyərlərin hökm sürdüyü ölkə kimi tanınan respublikamızda müxtəlif millətlərin, o cümlədən yəhudilərin əsrlər boyu tolerant mühitdə, dostluq və mehribanlıq şəraitində yaşadıqlarını bildirib. Nazir ikitərəfli münasibətlərin qurulmasında ümummilli lider Heydər Əliyevin önəmli rolunu vurğulayaraq, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İsrail Dövləti rəhbərliyinin siyasi iradəsi nəticəsində bu əməkdaşlığın strateji tərəfdaşlığadək inkişaf etdiyini diqqətə çatdırıb.

Görüşlərdə regional təhlükəsizlik, beynəlxalq terrorizm və transmilli mütəşəkkil cinayətkarlıqla mübarizə məsələləri ətraflı müzakirə edilib, iki ölkənin hüquq mühafizə orqanları arasında əməkdaşlığa dair beynəlxalq hüquqi sənədlərin qəbul olunmasının zəruriliyi qeyd olunub. Hazırda "Azərbaycan Respublikasının və İsrail Dövlətinin hökumətləri arasında daxili və ictimai təhlükəsizlik məsələlərində əməkdaşlıq haqqında Saziş" layihəsinin razılaşdırılması istiqamətində səylərin davam etdirildiyi vurğulanıb. Xalqlarımızın və ikitərəfli əməkdaşlığın tarixi və perspektivləri barədə xoş sözlərinə görə R.Usubova təşəkkürlərini bildirən G.Erdan və A.Liberman bir neçə gün əvvəl Azərbaycanda qeyd olunmuş Milli Qurtuluş Günü və Ramazan bayramı münasibətilə nümayəndə heyətini təbrik ediblər.

Onlar son illər ölkəmizin bütün sahələrdə əldə etdiyi uğurlardan, beynəlxalq nüfuzunun artmasından, eyni zamanda, ictimai asayişin, sabitliyin yüksək səviyyədə qorunmasından, azərbaycanlılarla bərabər əcnəbilərin, o cümlədən İsrail vətəndaşlarının da təhlükəsizliyinin təmini istiqamətində daxili işlər orqanları əməkdaşlarının böyük əmək sərf etdiklərindən məmnunluqlarını bildiriblər. Həmçinin bu səfərin iki dövlətin müvafiq strukturları arasında əməkdaşlığın daha da dərinləşməsinə xidmət edəcəyinə əminlik ifadə olunub. Görüşdə tərəfləri maraqlandıran bir sıra digər məsələlər də müzakirə edilib.

# Azərbaycan ISESCO-da öz mövqeyi ilə seçilən üzvlərdəndir

Mədəniyyət naziri Əbülfəs Qarayev Naxçıvan şəhərinin 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı elan olunması ilə bağlı açılış tədbirində iştirak etmək məqsədilə Azərbaycanda səfərdə olan ISESCO-nun baş direktoru Əbdüləziz Osman əl-Tuveycri ilə görüşüb.

Mədəniyyət Nazirliyinin İnformasiya və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Əbülfəs Qarayev son dövrdə ISESCO ilə əməkdaşlıq sahəsində görülən işlərdən danışıb. Nazir diqqətə çatdırıb ki, Azərbaycan bu təşkilatda öz mövqeyi ilə seçilən üzvlərdəndir. Buna səbəb Azərbaycan dövlətinin, şəxsən Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın İslam dünyası ilə əlaqələrin güclənməsi istiqamətindəki fəaliyyəti nəticəsində ölkəmizin müsəlman aləminə, mədəniyyətinə inteqrasiya proseslərinin çox fəal şəkildə həyata keçirilməsidir. ISESCO üzrə Azərbaycan Milli Komissiyasının üzvləri bu işin davam etdirilməsinə və münasibətlərin daha yüksək səviyyədə qurulmasına öz töhfələrini əsirgəmirlər.

Söhbət zamanı vurğulanıb ki, iyunun 20-də Naxçıvanda "İslam mədəniyyətinin paytaxtı"nın təntənəli açılış mərasimi keçiriləcək. Tədbirdə çoxsaylı mötəbər qonaqlar, dövlət rəsmiləri, o cümlədən TÜRKSOY-un baş katibi, İndoneziya, Tacikistan, Özbəkistan və Əlcəzairin mədəniyyət nazirləri, İran, Birləşmiş Ərəb Əmirlikləri, Qazaxıstan, Türkmənistan və Qətərin mədəniyyət nazirlərinin müavinləri və digər ölkələrin vəzifəli şəxslərindən ibarət nümayəndə heyətləri iştirak edəcəklər.

Əbülfəs Qarayev ISESCO-nun tərəfdaş qurum kimi bu əlamətdar hadisənin beynəlxalq miqyasda təbliğində fəallığının vacibliyini diqqətə çatdırıb.

Əbdüləziz Osman əl-Tuveycri ISESCO-Azərbaycan əməkdaşlığını, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın bu əlaqələrin inkişafında müstəsna rolu və dəstəyini xüsusi vurğulayıb. Görüşdə qarşılıqlı əməkdaşlıq məsələlərinə dair müzakirələr aparılıb.

* * *

Mədəniyyət naziri Əbülfəs Qarayev Naxçıvan şəhərinin 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı elan olunması ilə bağlı tədbirdə iştirak etmək məqsədilə ölkəmizdə səfərdə olan Tacikistanın mədəniyyət naziri Şamsiddin Şodibeklə görüşüb.

Nazirlikdən AZƏRTAC-a bildiriblər ki, nazir Əbülfəs Qarayev iyunun 20-də keçiriləcək "Naxçıvan - İslam mədəniyyətinin paytaxtı" tədbiri barədə məlumat verib. Bildirib ki, Naxçıvan Azərbaycanın qədim məskənlərindən biri olmaqla bərabər, həm də özündə ölkəmizin qədim və zəngin tarixini, mədəniyyətini əks etdirir.

Səmimi qəbula görə minnətdarlığını bildirən Tacikistanın mədəniyyət naziri Şamsiddin Şodibek özlərini Azərbaycanda qonaq kimi deyil, evlərindəki kimi hiss etdiklərini vurğulayıb. Tacikistanda həyata keçirilən yerli və beynəlxalq mədəni layihələr haqqında məlumat verən nazir ölkəsinin evsahibliyi etdiyi muğam festivallarında Azərbaycan xanəndələrinin mütəmadi iştirakını yüksək dəyərləndirib. Bildirib ki, dostluq, qardaşlıq zəminində inkişaf edən münasibətlər bundan sonra da davamlı olacaq.

Görüşdə ölkələrimiz arasında müştərək mədəni layihələrin həyata keçirilməsi istiqamətində fikir mübadiləsi aparılıb.

* * *

"Əlcəzair nümayəndə heyətinin Azərbaycana ilk səfəri əlamətdar tarixi hadisələrlə üst-üstə düşür."

Mədəniyyət Nazirliyindən AZƏRTAC-a bildiriblər ki, bu sözlər nazir Əbülfəs Qarayevin ölkəmizdə səfərdə olan əlcəzairli həmkarı Azzedine Mihoubi ilə görüşdə səsləndirilib.

Əbülfəs Qarayev Naxçıvan şəhərinin 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı elan olunması ilə bağlı tədbirlərdə iştirak etmək məqsədilə Azərbaycanda səfərdə olan əlcəzairli həmkarına dəvətini qəbul etdiyi üçün təşəkkürünü bildirib.

Azzedine Mihoubi deyib ki, əlcəzairlilər Azərbaycanın tarixi və mədəniyyəti haqqında məlumatlı olsalar da, ölkəmizin son illərdə əldə etdiyi nailiyyətlər barədə daha çox bilgilərə malikdirlər.

Azərbaycanın mədəniyyət sahəsindəki uğurları, beynəlxalq qurumlarla əlaqələri haqqında qonağı məlumatlandıran Əbülfəs Qarayev Əlcəzair nümayəndə heyətinin ölkəmizə ilk səfərinin əlamətdar tarixi hadisələrlə üst-üstə düşməsindən məmnunluğunu ifadə edib. Bildirib ki, səfər əlaqələrin bundan sonrakı inkişafına müsbət təsir göstərəcək. Azərbaycan ilə Əlcəzair arasında mədəni əlaqələrlə bağlı sazişin imzalanması üçün müvafiq işlərin aparılacağını diqqətə çatdıran Əbülfəs Qarayev bu razılaşmanın əlaqələrin daha dinamik inkişafına yol açacağına ümid bəslədiyini deyib.

Görüşdə ölkələrimiz arasında mədəniyyət sahəsində qarşılıqlı əlaqələrin perspektivləri barədə fikir mübadiləsi aparılıb.

Azərbaycan Respublikası Müdafiə Nazirliyi

1918 Azərbaycan Ordusu - 100 2018



# İKİNCİ ŞAPALAQ

## İlham Əliyevin əks-həmlə taktikası daha 11 min hektar torpağı geriyə qaytardı

*Əvvəli 1-ci səh.*

Azərbaycan Prezidenti cənab İlham Əliyev isə öz mövqeyində möhkəm və qətidir:

- *Azərbaycan ərazi bütövlüyünü mütləq bərpa edəcəkdir!*
- *Azərbaycan öz ərazisində ikinci erməni dövlətinin yaranmasına yol verməyəcəkdir!*
- *Azərbaycan münaqişənin sülh yolu ilə həllinə çalışır!*
- *Azərbaycanın səbri hüdudsuz deyildir və lazım gələndə digər vasitələrdən də istifadə edəcəkdir!*

**Azərbaycanın dövlət başçısı bu qətiyyətli mövqeyini ortaya qoyarkən özünə güvənir, xalq - iqtidar birliyinə arxalanır, ölkənin iqtisadi gücünü, siyasi nüfuzunu, ordusunun qüdrətini nəzərə alır!**

**Məhz müstəqil dövlətin müstəqil, düşünülmüş və uzaqgörən siyasətidir onu yenilməz edən!**

**Budur, Ali Baş Komandanımızın uğur taktikası!**

### COCUQ MƏRCANLIDAN GÜNNÜTƏ BOYLANARKƏN XANKƏNDİ DƏ GÖRÜNÜR

**Cənab İlham Əliyev sözünün sahibi olan dövlət rəhbəridir və bunu əməli fəaliyyətində dəfələrlə sübut edib!**

2016-cı ilin üç günlük aprel müharibəsi deyilənləri əyani şəkildə göstərdi. Qısa müddətdə hərbi əməliyyatların nəticəsini təkcə Ermənistan deyil, bütün dünya da bildi və gördü!

Və bu gün də Prezidentimizin verdiyi proqnozlar addımbaaddım özünü doğrultmaqdadır!

**Cənab İlham Əliyevin münaqişənin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində uğurlu həlli istiqamətində düşünülmüş, uzaqgörən və reallığa hesablanmış taktikası son iki ildə ikinci dəfədir ki, öz bəhrəsini verir!**

Bu taktikanın parametrləri hamıya bəllidir:

- *Azərbaycan sülh danışıqları yolu ilə münaqişənin həllinə çalışır;*
- *Ermənistan işğal olunmuş əraziləri boşaldana qədər blokada vəziyyətində qalacaqdır;*
- *Azərbaycan dayanmadan iqtisadi qüdrətini yüksəldir, qonşularına, Avropaya və dünyaya fayda gətirən, tərəfdarlarının sayını artıran transmilli layihələri reallaşdırmaqda davam edir!*

*Qloballaşan dünyaya dəyərli töhfələr verən Azərbaycanın artıq müasir imici də formalaşmışdır:*

- Terrorizmə qarşı mübarizəyə daim dəstək verir;
- Dünyaya tolerantlıq nümunəsi göstərir;
- Bəşəriyyəti narahat və təhdid edən problemlərin müzakirə olunduğu, konkret tövsiyə və təkliflər verildiyi məkan funksiyasını oynayır;
- Ən müxtəlif idman yarışlarının mahir təşkilatçısı kimi tanınır;
- Özünün okeana birbaşa çıxışı olmasa da , beynəlxalq yükdaşımalar və logistika mərkəzinə çevrilir;
- Müstəqil, milli və dövləti maraqlara əsaslanan siyasət yeridir.

**Bütün bunlarla bahəm qüdrətli, ən müasir texnologiyalara əsaslanan silahlarla silahlanmış güclü ordu yaradıb. Bu ordu aprel müharibəsində öz qüdrətini göstərdi, düşmənə elə bir zərbə vurdu ki, hələ də özünə gələ bilməyib:**











*Azərbaycan Ordusu Ali Baş Komandanın rəhbərliyi ilə Lələtəpə yüksəkliyini azad etdi!*

*Cocuq Mərcanlı kəndi qısa müddətdə yenidən tikilib-qurularaq məskunlaşdırıldı!*

*Böyük Qayıdışa başlandı və bu istiqamətdə ilk addım atıldı!*

*İkinci addım isə Günnüt hesab olunur!*

**Bu həm də son dövrlərdə hərbi, siyasi və diplomatik sahədə düşmənə vurulan ikinci şapalaqdır!**

**Azərbaycanın mövqeyini daha da möhkəmləndirən, Ermənistanı aciz və ümidsiz duruma salan şapalaqdır!**

*Aprel şapalağı düşməni möhkəm silkələdi!*

*Təkcə hərbi sistemini yox, siyasi mühitini, vətəndaş cəmiyyətini də sarsıtdı.*

*Ordu generallarının istefaya göndərilməsi, barələrində cinayət işi açılması ilə məsələ bitmədi!*

**Bu şapalaq isə erməni xalqını da ayıltdı!**

Ermənistanın kriminal rəhbərliyinin əlində alətə çevrilərək dilənçi vəziyyətinə düşən insanlar küçələrə axışaraq haqlarını tələb etməyə, insan kimi yaşamaq hüquqlarının olduğunu kütləvi aksiyalar formasında bəyan etməyə başladılar!

Dövlət başçısı ilə xalq arasındakı hörmət və itaət pərdəsi ayaqlar altına atıldı!

Sərkisyanın korrupsioner, şəxsi maraqlarına xidmət edən və yalnız özünü düşünən cinayətkar olduğu meydanlarda ucadan səsləndirilməyə başlandı!

"Qarabağ klanı" və Ermənistan ermənləri arasındakı ziddiyyət, qarşıdurma və hətta düşmənçilik hərəkətləri bütün səviyyə və sferalarda daha da kəskinləşərək açıq müzakirə mövzusuna çevrildi.

Erməni xalqı dərindən anladı ki, təkcə rəhbər dəyişikliyi onun vəziyyətini heç zaman yaxşılaşdırmayacaq, ölkəni uçurumun dibindən çıxarmayacaq! Qurtuluş üçün dövlət siyasətini dəyişmək, Ermənistan silahlı qüvvələrini Azərbaycan torpaqlarından çıxarmaq, qonşularla yola gedərək blokadanı aradan qaldırmaq vacibdir!

Ən mühüm iki məqam!

*Tərs şapalaqdan ağılları başlarına qayıdan ermənilər ilk dəfə olaraq:*

- *Düşdükləri müsibətdə əsas günahkarlardan birinin də erməni kilsəsinin olduğunu anlayaraq Ermənistan katalikosu İİ Qareginə qarşı da etiraz aksiyalarına başladılar!*
- *Hətta Qarabağ ermənilərinin bəziləri nicatlarının Azərbaycanla bağlılığını başa düşərək kömək üçün İlham Əliyevə müraciət edib, yenidən Azərbaycanın tərkibinə qatılmaq arzularını səsləndirdilər!*

**Bu gün Cocuq Mərcanlıdan Günnütə tərəf boylananda artıq ağıllanan və qaynayan Xankəndi də görünür!**

### BƏRK AYAQDA AĞALARINI SATANLARIN PAŞİNYAN HOQQABAZLIĞI

*Xankəndidə yaşayan sadə ermənilərin ixtiyarları özlərində deyil - bunu hamı bilir!*

*Heç Ermənistana rəhbərlik edənlər də özbaşına deyillər! - Bu da məlumdur!*

*Ən yaxşı halda buyruq quludurlar. - Forpost və satellat dövlətdirlər!*

Odur ki, Sərkisyanın gedib, yerinə Paşinyanın gəlməsi mahiyyətcə heç nəyi dəyişmir.

Artıq dəyişən Paşinyanın özüdür!

Meydanda əsgər analarına, erməni gənclərinə, bütövlükdə erməni xalqına verdiyi vədləri "unudaraq", əslində isə yerinə yetirilməsinin mümkünsüzlüyünü görərək əvvəlki rəhbərlərin dediyini deyir!

Sülh danışıqlarından yayınmağa çalışır: ziddiyyətli, ağlasığmaz və gülünc bəyanatlar verir!

Paşinyanın baş nazir olduğu qısa müddətdə:

- Erməni anaları başa düşdülər ki, övladları yenə də Qarabağda xidmətə göndərilərək orada döyüləcək, öldürüləcək, tabutda geri qaytarılacaqlar!
- Erməni gəncləri anladılar ki, yenə də universitet auditoriyalarını əsgər kazarmaları ilə əvəz edəcəklər!
- Erməni xalqı əmin oldu ki, yenə dilənçi vəziyyətində, qorxu içində yaşayacaq, yalnız köçüb birdəfəlik xaricə getməklə canlarını cani rəhbərlərdən qurtara biləcəklər!

**Rusiya ilə Qərb arasında vurnuxan, Dağlıq Qarabağı danışıqlar masasına gətirməyə çalışan Paşinyan Günnüt şapalağından sonra çətin ki, özünə gələ!**

**Çünki sələfi Serj Sərkisyan da Cocuq Mərcanlı şapalağından sonra qulağı cırıldaya-cırıldaya getdi!**

*Yarıköhnə, yarıtəzə Ermənistan rəhbərliyi yarıqərb, yarırus siyasəti yürütmək istəyir...*

*Amma əslində, ondan da olub, bundan da!*

**Üstəlik, ordunun yeni rəhbərliyi, Paşinyanın komandası da yeni ərazi itirdi!**

**Özü də bir dəfəyə 11 min hektar!**

Day bunların Sərkisyan generallarından fərqi nə oldu?!

O, generallar aprel şapalağı ilə getdilər!

Bunlar isə Günnüt itkisinə dözməlidirlər?!

Amma hələ bu da son deyil!

Azərbaycan üçün başlanan Böyük Qayıdışın davamıdır!

Başlanğıcını Cocuq Mərcanlıdan götürən qayıdışın!

**Hadisələr göstərir ki, prosesi dayandırmaq mümkün olmayacaqdır! Çünki baş verənlərə Ermənistan yox, Azərbaycan tərəfi nəzarət edir!**

**Azərbaycanın isə dönməz və dəyişməz taktikası, qətiyyətli və uzaqgörən Prezidenti, artıq torpaqların hissə-hissə qaytarılmasını dayanmaz prosesə çevirən İlham Əliyev kimi Ali Baş Komandanı var!**

Atalar üçdən deyib!
Birinci şapalaq 2016-nın aprelində gəldi!
İkinci şapalaq bu ilin mayında dəysə də, səsi iyunda çıxdı!
Deyəsən təpiyin vaxtı çatıb!

**Bəxtiyar SADIQOV**

## *Müdafiə naziri:* "Ordumuz düşmən təxribatının qarşısını almağa hər an hazır olmalıdır"

İyunun 16-da Müdafiə Nazirliyində general-polkovnik Zakir Həsənovun rəhbərliyi və kollegiya üzvlərinin iştirakı ilə 2018-ci ilin qış tədris dövrünün yekunlarına dair geniş tərkibdə iclas keçirilib. Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, tədbirdə nazir müavinləri, qoşun növlərinin komandanları, nazirliyin baş idarə, idarə, müstəqil xidmət və şöbə rəisləri, birlik, birləşmə komandirləri, xüsusi təyinatlı hərbi təhsil müəssisələrinin rəhbərləri və digər vəzifəli şəxslər iştirak ediblər.

Əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Kollegiya iclasında hesabat dövründə ordu quruculuğu sahəsində görülən işlər və əsas istiqamətlər üzrə yerinə yetirilən tapşırıqlarla bağlı məruzə dinlənilib, son dövrlərdə həyata keçirilən islahatlar, qoşunların döyüş hazırlığının vəziyyəti və digər məsələlər müzakirə olunub. Müdafiə naziri 2018-ci ilin qış tədris dövründə Azərbaycan Ordusunun hazırlığının nəticələri və yay tədris dövründə qarşıda duran vəzifələr haqqında geniş məruzə ilə çıxış edib. Prezident İlham Əliyevin Azərbaycan Ordusuna verdiyi qiyməti, göstərdiyi diqqət və qayğını xüsusi qeyd edən nazir Ali Baş Komandanın rəhbərliyi ilə son illər ərzində qazanılan nailiyyətlərdən danışıb.

General-polkovnik Z.Həsənov cari ildə görülən tədbirləri təhlil edərək döyüş hazırlığı, şəxsi heyətin mənəvi-psixoloji vəziyyəti, müdafiə sistemi və onun hərtərəfli təminatı məsələlərini, eləcə də düşmənin istənilən təxribatının qarşısının alınması və ona layiqli zərbə endirilməsi məqsədilə 2018-ci ilin yay tədris dövründə qarşıda duran əsas vəzifələri diqqətə çatdırıb. Qeyd edilib ki, ordumuz düşmən təxribatının qarşısını almağa hər an hazır olmalıdır.

Müdafiə nazir Silahlı Qüvvələrin 100 illiyi ilə əlaqədar keçiriləcək tədbirlərə hazırlıqla bağlı səlahiyyətli şəxslərə müvafiq tapşırıqlar verib.

Sonda kollegiya iclasının qərar layihəsi müzakirə edilərək qəbul olunub.

## Raket və Artilleriya Qoşunlarının cəbhə bölgəsində hərbi hissəsinin açılışı olub





Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin göstərişinə əsasən, Azərbaycan Ordusunun hərbi hissələrində tikinti-quruculuq işləri davam etdirilir.

İyunun 19-da müdafiə naziri, general-polkovnik Zakir Həsənov Raket və Artilleriya Qoşunlarının cəbhə bölgəsində yeni inşa edilən hərbi hissəsinin açılışında iştirak edib.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Zakir Həsənov ərazidəki qərargah, döyüş texnikaları üçün saxlanclar, əsgər yataqxanası, yeməkxana, sıra meydanı və digər obyektlərlə tanış olub. Ali Baş Komandan İlham Əliyevin qarşıya qoyduğu tapşırıqları bir daha xatırladan müdafiə naziri ordumuza göstərilən diqqət və qayğının nəticəsi olaraq əldə edilən uğurları xüsusi vurğulayıb.



General-polkovnik Z.Həsənov Raket və Artilleriya Qoşunlarının döyüşə hazırlıq səviyyəsinin artırılması və döyüş vasitələrinin səmərəli istifadəsi ilə bağlı komandanlıq qarşısında müvafiq tapşırıqlar qoyub.

Sonda şəxsi heyətlə birlikdə nahar edilib.

## Müdafiə naziri səhra məşğələlərinin gedişini izləyib

İyunun 20-də müdafiə naziri general-polkovnik Zakir Həsənov hərbi poliqonda müxtəlif bölmələr ilə keçirilən səhra məşğələlərinin gedişini izləyib.

AZƏRTAC xəbər verir ki, nazir Zakir Həsənov Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin 3-cü kurs kursantlarının taktiki məşğələlərinin keçirildiyi qüllədəki tədris sinfinə gəlib.

"Mexanikləşdirilmiş taqım hücumda" mövzusundakı üzrə məşğələnin keçirilmə planına uyğun olaraq, kursantlar taqım və manqa komandirləri rolunda çıxış edərək məşğələ zamanı yaradılmış taktiki vəziyyətə uyğun hərəkət ediblər. Taqım komandiri vəzifəsinə təyin edilmiş kursantlardan biri hücum haqqında əmri taqımın şəxsi heyətinə çatdırdıqdan sonra qarşılıqlı fəaliyyəti təşkil edib və döyüş texnikasında praktiki hərəkətlərə başlayıb.

Bu mərhələdə mina sahəsinin keçilməsi, döyüş düzülüşünün müxtəlif formalarının tətbiqi, şərti düşmənin aldadılması qaydaları, maskalanma və sair tapşırıqları nəzərdə tutan müasir ümumqoşun döyüşünün taktiki üsulları icra edilib.

Sonra müdafiə naziri snayperlərin hazırlığı mərkəzinin atış sahəsinə gələrək praktiki atışların təşkili və icrasını müşahidə edib. Təlim nöqtələrində snayperlər hədəfin aşkarlanması, atəş mövqeyinin tutulması, maskalanma, sərrast atəşlə hədəfin məhv edilməsi və digər fəaliyyətləri icra edir, həmçinin snayper sənətinin nəzəri əsaslarını öyrənirlər.

Müdafiə naziri motoatıcı, tank və artilleriya bölmələrinin hazırlığını da izləyib. Məşğələlərə cəlb edilmiş şəxsi heyət atəş, taktiki, taktiki-xüsusi hazırlıq, döyüş maşınlarının idarə olunması və digər tapşırıqları yerinə yetirib.

Təlim məşqlərin sonunda general-polkovnik Z.Həsənov poliqona dəvət olunmuş kütləvi informasiya vasitələrinin nümayəndələri ilə görüşüb.

Mətbuat nümayəndələri ilə söhbətində Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaradılmasının 100 illik yubileyi münasibətilə xalqımızı təbrik edən müdafiə naziri Prezident, Ali Baş Komandan İlham Əliyevin diqqəti, qayğısı və müdrik rəhbərliyi ilə son illər həyata keçirilən kompleks islahatların nəticəsində bu gün Azərbaycan Ordusunun istənilən döyüş əmrini yerinə yetirməyə tam hazır və qadir olduğunu bildirib.

Müdafiə naziri hərbi hissələrdə yerinə yetirilən fəaliyyətlər, aparılan uğurlu islahatlar, əldə olunan nailiyyətlər, qarşıda duran vəzifə və tapşırıqlar barədə media nümayəndələrinin suallarını da cavablandırıb.

# XXI Dünya çempionatı






# Rusiya və Uruqvay 1/8 finalda

**Rusiya - Misir - 3:1**
*Qol: Ahmet Fathi, 47 (avtoqol), Çerışev, 59, Dzyuba, 62 - Salah, 72 (pen.)*
*Baş hakim: Enrike Kaseres (Paraqvay)*
*Sankt-Peterburq, Şəhər stadionu*

İyunun 19-da Rusiya-Misir matçı ilə A qrupunda 2-ci tura start verildi.

İlk dəfə mundialda 4 ərəb ölkəsi (Misir, Mərakeş, Səudiyyə Ərəbistanı və Tunis) təmsil olunur ki, onlardan da ikisi A qrupunda yer alıb. 1990-cı ildən sonra ilk dəfə dünya çempionatına qatılması Misir millisi üçün əsas motivasiyadır.

Heyətində bu il "Qızıl top"u qazanmağa əsas namizədlərdən olan Mohamed Salahın yer alması da komandaya əlavə üstünlük verir. Düzdür, Çempionlar Liqasının finalında çiyni zədələnən "Liverpul"lu hücumçunun hətta mundialda iştirakı sual altında olsa da, Rusiya ilə qarşılaşmada start heyətində yer almışdı.

**A qrupu**

| Komandalar | O | Q | M | H | X |
|---|---|---|---|---|---|
| Rusiya | 2 | 2 | 0 | 0 | 6 |
| Uruqvay | 2 | 2 | 0 | 0 | 6 |
| Misir | 2 | 0 | 2 | 0 | 0 |
| S.Ərəbistanı | 2 | 0 | 2 | 0 | 0 |

Ümumiyyətlə, Salahla birlikdə Misir komandasının heyətində İngiltərədə çıxış edən 7 futbolçu var ki, onlardan "Arsenal"ın yarımmüdafiəçisi Mohamed Elneninin də adını çəkmək olar. Millinin 45 yaşlı qapıçısı və kapitanı Essam Əl-Hadari isə kolumbiyalı qapıçı Farid Mondraqonun nailiyyətini geridə qoymaqla mundiallar tarixinin ən yaşlı oyunçusu ola bilər.

Amma Misir komandasının son 6 yoldaşlıq görüşündə qələbəyə həsrət qalması faktı gələcək uğursuzluq üçün bir siqnal ola bilərdi. Gözlənilən də oldu. Düzdür, oyun planını əsasən rəqibi oynatmamaq üzərində quran misirlilər qapılarında bir neçə təhlükəli epizodla üzləşsələr də, rəqib futbolçuların qeyri-dəqiqliyi hesabın açılmasına mane oldu.

Fasilədən sonra da təzyiqi artıran Rusiya seçməsi Ahmet Fathinin avtoqolu sayəsində görüşdə hesabı açıb. Çerışev və Dzyubanın qollarına Misir seçməsində Mohamed Salah penaltidən vurduğu qolla qarşılıq verib. Beləliklə, doğma divarlar arasında 3:1 hesabı ilə qalib gələn Rusiya millisi 1/8 finala yüksəlib.

**Uruqvay - S.Ərəbistanı - 1:0**
*Qol: Luis Suares, 23*
*Baş hakim: Kleman Turpen (Fransa)*
*Rostov, "Rostov Arena"*

Dünən Uruqvay-S.Ərəbistanı matçı ilə A qrupunda 2-ci tura yekun vurulub. Dünya çempionatı ilk dəfə Uruqvayda keçirilən, ilk dəfə elə bu ölkənin komandasının çempionluğu ilə başa çatan yarışdır. İkiqat dünya çempionu adını daşıyan, DÇ-2010-da 4-cü yeri tutduqdan sonra DÇ-2014-də 1/8 finalda büdrəyən uruqvaylılar bu dəfə Rusiya mundialının əsas favoritlərindən biri hesab olunmasalar da, A qrupunda liderliyə əsas namizəddirlər. Qapısında Fernando Muslera, müdafiəsində Dieqo Qodin, hücumunda isə Luis Suarez və Edinson Kavani kimi futbolçuların oynadığı komandadan başqa nə gözləyəsən ki?! Uruqvay millisi son 3 yoldaşlıq görüşündə qalib gəlməklə də gücünü göstərə bilib.

Qrupun ilk matçında Misir yığmasını 1:0 hesabı ilə məğlub edən uruqvaylılar bu görüşün də açıq-aşkar favoriti idilər. Daha baxımlı futbol nümayiş etdirən Uruqvay 1:0 hesabı ilə qalib gələrək adını 1/8 finala yazdırıb.

**DÇ-2018-in TƏQVİMİ**
**21 iyun**

C qrupu
16:00 Danimarka -Avstraliya
Samara
19:00 Fransa-Peru
Yekaterinburq

D qrupu
22:00 Argentina-Xorvatiya
Nijni Novqorod

# RONALDUNUN benefisi



**Mərakeş - İran - 0:1**
*Qol: Aziz Buhadduz, 90+4 (avtoqol)*
*Baş hakim: Cüneyt Çakır (Türkiyə)*
*Sankt-Peterburq, "Krestovski" stadionu*

İyunun 15-də Mərakeş- İran matçı ilə B qrupunda mübarizəyə start verildi. Mərakeş millisi, yəqin ki, çoxlarının xatirində Braziliyanın 1998 mundialında gözlənilmədən Norveçə uduzaraq (1:2) qrupdan çıxmasına imkan verməyən komanda kimi qalıb. Həmin haqsızlıq mərakeşlilərə necə təsir etmişdirsə, növbəti dörd dünya çempionatına qatıla bilməmişdilər.

İndi isə təxminən bir ildir ki, məğlubiyyət nə olduğunu bilməyən, mundial ərəfəsində keçirdikləri 5 oyundan 4-də qalib gələn Mərakeş DÇ-1986-dakı uğurlarını (1/8 final), çətin, təkrarlasınlar. Baxmayaraq ki, heyətlərində "Real Madrid" (19 yaşlı müdafiəçi Əşrəf Hakimi), "Yuventus" (müdafiəçi Mehdi Benatia), "Qalatasaray" (yarımmüdafiəçi Yunes Belhanda) kimi klubların futbolçuları var.

İran komandası bizim üçün həmişə heyətindəki cənubi azərbaycanlı futbolçuların çıxışı baxımından maraqlı olur. İran millisinin heyətində Ərdəbil doğumlu Kərim Ansarifardın oyunu xüsusilə diqqət cəlb edir. Yunanıstanın "Olimpiakos" klubunda forma geyinən Kərim ötən mövsümü 17 qolla başa vurub.

Son 6 yoxlama oyununda 4 qələbə və 2 məğlubiyyətə imza atan İran millisinin mundialın iştirakçıları arasında ilk olaraq Rusiyaya gəlməsi də diqqət çəkir.

Türkiyəli referi Cüneyt Çakırın idarə etdiyi görüş bəlkə də mundialın ən baxımsız oyunları sırasında ilk 3-lüyə düşər. Yekunda Aziz Buhadduzun avtoqolu İran yığmasına qələbə qazandırdı.

**Portuqaliya - İspaniya - 3:3**
*Qollar: Ronaldu, 4 (pen.), 45, 88 - Dieqo Kosta, 25, 55, Naço, 58*
*Baş hakim: Canluka Rokki (İtaliya)*
*Soçi, "Fişt" stadionu*

Qrupun digər matçı isə bol qolla yadda qaldı. Portuqaliya-İspaniya matçında 6 qol vuruldu. Portuqaliya Rusiya mundialına Avropa çempionu kimi gəlib. Komandanın yenə əsas ümidi Kriştianu Ronaldudur. Onunla portuqallar ən yaxşı halda DÇ-2006-da 4-cü yeri tutublar. Ümumiyyətlə, bundan əvvəl 3 mundiala qatılan portuqaliyalı futbolçunun şəxsi statistik göstəriciləri belədir: 13 oyun, 3 qol və 2 sarı vərəqə. Yeri gəlmişkən, dünya çempionatlarının seçmə turnirində 30 qol vuran Ronaldu bu göstəricidə avropalılar arasında rekordçudur. İspaniya ilə matçda da het-trikə imza atan Ronaldu Portuqaliyanı məğlubiyyətdən xilas etdi. İspaniyada isə Dieqo Kosta (2) və Naço fərqlənib.

İki dəfə Avropa, 1 dəfə də dünya çempionu olduqdan sonra DÇ-2014 (qrupda 3-cü yer) və Avro-2016-da (1/8 final) uğursuz çıxış edən İspaniya millisi Xulen Lapoteginin rəhbərliyi altında keçirdiyi 20 oyunun heç birində məğlub olmamışdı: 14 qələbə və 6 heç-heçə. Martda Argentina ilə yoldaşlıq görüşündəki 6:1 hesablı qələbə, ötən il isə İtaliyaya 3:0 hesabı ilə qalib gəlmələri ispanların gücündən xəbər verirdi.

**B qrupu**

| Komandalar | O | Q | M | H | X |
|---|---|---|---|---|---|
| Portuqaliya | 2 | 1 | 0 | 1 | 4 |
| İspaniya | 2 | 1 | 0 | 1 | 4 |
| İran | 2 | 1 | 1 | 0 | 3 |
| Mərakeş | 2 | 0 | 2 | 0 | 0 |

Amma "Real"la müqavilə bağlaması səbəbindən Lapoteginin mundialdakı ilk oyunlarına iki gün qalmış baş məşqçi vəzifəsində millinin idman direktoru Fernando Yerro ilə əvəzlənməsinin ispanların Rusiyadakı çıxışına necə təsir edəcəyi maraqla gözlənilirdi.

Yeri gəlmişkən, DÇ-2010-da çempionluğa görə hərəyə 600 min avro mükafat alan İspaniya millisinin oyunçularına Rusiya mundialının qalibi olacaqları təqdirdə 825 min avro vəd olunub.

**Portuqaliya - Mərakeş - 1:0**
*Qol: Kriştianu Ronaldo, 4*
*Baş hakim: Mark Giger (ABŞ)*
*Moskva, "Lujniki stadionu"*

Dünən Portuqaliya - Mərakeş matçı ilə B qrupunda 2-ci tura start verildi. Hakimin start fitindən sonra təzyiqi artıran portuqaliyalılar 4-cü dəqiqədə arzularına çatdılar. Kriştianu Ronaldu vurduğu qolla komandasını hesabda irəli çıxartdı. Bundan sonra görüşdə daha çox qol vurulacağı gözlənilsə də, hər iki tərəf bir neçə qol epizodunu boşa verdi. Nəticədə 1:0 hesabı ilə qələbə qazanan Portuqaliya qrupda liderliyə yüksəldi.

**İran - İspaniya - 0:1**
*Qol: Dieqo Kosta, 54*
*Baş hakim: Andres Kunya (Uruqvay)*
*Kazan, "Kazan Arena"*

Qrupun digər matçında isə İran və İspaniya yığmaları üz-üzə gəldilər. Hamı ispanların görüşü rahat qələbə ilə başa vuracağını gözləsə də, olmadı. İlk hissədə İranın müdafiə xətti İspaniyanın hücumunu böyük ustalıqla dəf etməyi bacardı. Xüsusilə İniyesta və İskonun oyun qurmasına mane olan İran əks hücumlardan fərqlənməyi düşünürdü. Bütün cəhdlərə baxmayaraq, ilk hissədə qol olmadı.

Fasilədən sonra taxtiki gedişdə dəyişiklik edən və hücumlarının sayını artıran ispanlar 54-cü dəqiqədə arzularına çatdılar. Dieqo Kosta müdafiəçilərin kobud səhvindən istifadə edərək hesabı açdı.

Qoldan sonra hücuma atılan İran millisi oyunu meydançanın rəqibə aid hissəsində qurmaq istəyirdi. Lakin ispanların presinq tətbiq etməsi ötürmələrdə qeyri-dəqiqliyə səbəb olurdu. Bunlara baxmayaraq, iranlıların hesabı bərabərləşdirmək üçün imkanları var idi. Ancaq qeyri-dəqiqlik mundialda növbəti sürprizin qeydə alınmasına mane oldu.

Beləliklə, 1:0 hesabı ilə qələbə qazanan İspaniya yığması xalların sayını 4-ə çatdırdı.



# Oyun yox, nəticə var

**Fransa - Avstraliya - 2:1**
*Qol: Antuan Qrizman, 58 (pen.); Aziz Behiç, 81 (avtoqol) - Mayl Yedinak, 62 (pen.)*
*Baş hakim: Andres Kunya (Uruqvay)*
*Kazan, "Kazan Arena"*

İyunun 16-da C qrupuna Fransa-Avstraliya qarşılaşması ilə start verildi. Görüşdə fransızlar A.Qrizmanın vurduğu penalti zərbəsindən sonra hesabda irəli çıxdılar. Avstraliya yığması 62-ci dəqiqədə penalti zərbəsi ilə hesabdakı tarazlığı bərpa etdi. Lakin 81-ci dəqiqədə Aziz Behiçin avtoqolu Fransa yığmasına 2:1 hesablı qələbə qazandırdı.

Əfsanəvi Valeri Lobanovskinin məşhur fikri var: "Oyun unudulur, nəticə isə qalır". C qrupunda yer alan komandalar mundial ərəfəsində uğurlu nəticələr göstərsələr də, onlardan yalnız ikisi 1/8 finala çıxa biləcək.

Son bir ildə keçirdiyi 12 oyunun cəmi birində məğlubiyyət (martda yoldaşlıq görüşündə Kolumbiyaya 2:3 hesabı ilə) acısı yaşayan Fransa millisi, şübhəsiz, DÇ-2018-in əsas favoritlərindən biridir. Fransızların istənilən müdafiəni yara biləcək yarımmüdafiə və hücum xətti var. "Barselona"nın hədəfində olan Antuan Qrizman ("Atletiko Madrid") və hazırda bu klubda oynayan Ousman Dembele, "Çelsi"də çıxış edən Olivye Jiru və N'Qolo Kante, həmçinin Pol Poqba ("Mançester Yunayted") və mundialın ən gənc oyunçularından biri 19 yaşlı Kilian Mbappeni ("Pari Sen-Jermen") nümunə göstərmək olar.

Fransa ilə görüşdə də göründü ki, DÇ-2010-da Hollandiyanı finala çıxaran baş məşqçi Bert van Marveyk hazırda rəhbərlik etdiyi Avstraliya komandası ilə bu uğuru təkrarlaya bilməyəcək.

Əvvəl çıxış etdiyi 4 mundialda yalnız bir dəfə 1/8 finala çıxan (DÇ-2006) avstraliyalıların həmin nailiyyəti belə təkrarlaya biləcəkləri inandırıcı görünmür. Düzdür, avstraliyalılar son Asiya çempionlarıdır (2015), həm də keçirdikləri son 9 oyunda cəmi bir dəfə məğlub olublar. Amma hazırkı heyətlə onlar çətin ki, qrupdan çıxa bilsinlər.

**Peru - Danimarka - 0:1**
*Qol: Yusuf Poulsen, 59*
*Baş hakim: Bakari Qassama (Qambiya)*
*"Saransk, "Mordoviya Arena"*

C qrupunun digər matçında isə Peru ilə Danimarka seçmələri üz-üzə gəldilər. 59-cu dəqiqədə Yusuf Poulsenin yeganə qolu Danimarkaya 3 xalı qazandırdı.

1982-ci ildən sonra ilk dəfə mundiala qatılan Peru komandası 2017-ci ildən başlayaraq məğlubiyyət nə olduğunu bilmirdi. Ümumilikdə 15 oyunda 10 qələbə qazanmışdı, bu il keçirdiyi 5 yoldaşlıq görüşünün 4-ündə rəqiblərindən güclü olmuşdu.

Cənubi Amerika təmsilçisinin aparıcı simaları dopinq qalmaqalına görə mundialı buraxması gündəmdə olan, amma məhkəmə tərəfindən oynamasına icazə verilən Paolo Gerrero və uzun müddət "Şalke"də çıxış etmiş, indisə Moskva "Lokomotiv"inin formasını geyinən Cefferson Farfandır.

İlk dəfə Skandinaviyanın 3 ölkəsinin dünya çempionatında təmsil olunduğu diqqət çəkir ki, onlardan da biri Danimarkadır. Yanvarda bu komanda ikinci heyətlə Birləşmiş Ərəb Əmirliklərindəki turnirdə iki məğlubiyyətlə üzləşsə də, əsas heyət 2016-cı ilin noyabrından bəri uduzmur: 8 qələbə və 7 heç-heçə. Seçmə yarışda Polşaya 4:0, pley-offda isə səfərdə İrlandiyaya 5:1 hesabı ilə qalib gələn və əsas ulduzu "Tottenhem"li Kristian Eriksen olan Danimarka millisi də mundialda sürprizə imza ata bilər.

**C qrupu**

| Komandalar | O | Q | M | H | X |
|---|---|---|---|---|---|
| Fransa | 1 | 1 | 0 | 0 | 3 |
| Danimarka | 1 | 1 | 0 | 0 | 3 |
| Peru | 1 | 0 | 1 | 0 | 0 |
| Avstraliya | 1 | 0 | 1 | 0 | 0 |

# Sambaçılar təəccübləndirdi

**E qrupu**

| Komandalar | O | Q | M | H | X |
|---|---|---|---|---|---|
| Serbiya | 1 | 1 | 0 | 0 | 3 |
| Braziliya | 1 | 0 | 0 | 1 | 1 |
| İsveçrə | 1 | 0 | 0 | 1 | 1 |
| Kosta-Rika | 1 | 0 | 1 | 0 | 0 |

**Kosta-Rika - Serbiya - 0:1**
*Qol: Aleksandr Kolarov, 56*
*Baş hakim: Malanq Diedhiu (Seneqal)*
*Samara, "Samara Arena"*

İyunun 17-də E qrupunda ilk tura yekun vurulub. Günün ilk matçında Aleksandr Kolarovun vurduğu qolla Serbiya millisi - Kosta-Rikadan güclü olub.

Oyunçularının orta yaşı 29,6 olan Kosta-Rika millisi mundialın ən yaşlı iki komandasından biridir. Şübhəsiz, kosta rikalıların əsas ulduzu Madrid "Real"ının 31 yaşlı qapıçısı Keylor Navasdır. Komandanın son 10 oyundan 6-sında məğlub olması isə gələcəyə nikbin baxmağa imkan vermir. Amma unutmayaq ki, Kosta-Rika DÇ-2014-də sensasiyaya imza ataraq yarımfinala çıxmağa yaxın olmuşdu - 1/4 finalda penaltilər seriyasında Hollandiya yığmasına uduzmuşdular.

Həm DÇ-2006, həm də DÇ-2010-da qrupda qalan Serbiya millisinin Rusiya mundialının seçmə turnirində İrlandiya, Uels və Avstriya kimi komandaları qabaqlaması gözlənilməz olmuşdu. Mundial ərəfəsində 4 yoldaşlıq görüşü keçirən serblər onlardan 2-sində qalib gəlib, 2-sində isə uduzublar.

Serbiya komandasının "20 nömrəsi"nə xüsusi diqqət: Zinəddin Zidanla müqayisə edilən "Latsio"nun 23 yaşlı hücuma meyilli yarımmüdafiəçisi Sergey Milinkoviç-Saviçə görə Madrid "Real"ının hətta 150 milyon avro ödəməyə hazır olduğu bildirilir.

**Braziliya - İsveçrə - 1:1**
*Qollar: Koutinyo, 20 - Suber, 50*
*Baş hakim: Sezar Ramos (Meksika)*
*Rostov, "Rostov Arena"*

Qrupun ən sürpriz nəticəsi "Rostov Arena"da qeydə alındı. Braziliya yığması İsveçrə ilə heç-heçə oynayaraq azarkeşlərini məyus etdi.

İştirak etdiyi hər mundialın favoriti sayılan "pentakampeon"lar "eksakampeon" (6 qat çempion) olacaqlarmı? Sonuncu dəfə 2002-ci ildə dünya kubokuna sahib çıxan Braziliya millisi ondan sonrakı iki çempionatda 1/4 finalda mübarizəni dayandırıb, öz evində keçirilən DÇ-2014-də isə 4-cü yeri tutub.

"Fərdi olaraq bütün futbolçular yaxşı olsa da, biz hələ komanda deyilik və Neymar təklikdə bizə dünya çempionluğunu qazandıra bilməyəcək" - deyən Pelenin həmişə proqnozlarının əksinin olduğu artıq hamıya bəllidir.

Komanda Rusiya mundialı ərəfəsində 100 faizli nəticə göstərib. Bu il 4 oyunda qol buraxmadan 4 qələbə qazanıb. Ümumiyyətlə, baş məşqçi Titenin rəhbərliyi ilə braziliyalılar 21 oyundan 17-sində qalib gəlib, yalnız bir il əvvəl yoldaşlıq görüşündə argentinalılara məğlub olublar-0:1.

İsveçrə millisi də 2016-cı ilin sentyabrından bəri 17 qarşılaşmadan yalnız birində məğlub olub. Son üç mundialda iki dəfə 1/8 finala çıxan isveçrəlilər həmin nailiyyəti yüksəltməyə çalışacaqlar. Əsas ulduzu "Stok Siti"də çıxış edən Cerdan Şakiri olsa da, Braziliya ilə qarşılaşma göstərdi ki, İsveçrə "bir oyunçunun komandası" deyil.



# XXI Dünya çempionatı




# Mundialın ilk sürprizi



**D qrupu**

| Komandalar | O | Q | M | H | X |
|---|---|---|---|---|---|
| Xorvatiya | 1 | 1 | 0 | 0 | 3 |
| Argentina | 1 | 0 | 0 | 1 | 1 |
| İslandiya | 1 | 0 | 0 | 1 | 1 |
| Nigeriya | 1 | 0 | 1 | 0 | 0 |

**Argentina - İslandiya - 1:1**
*Qollar: Serxio Aquero, 19 - Alfred Finnboqason, 23*
*Baş hakim: Şimon Marçinyak (Polşa)*
*Moskva, "Spartak" stadionu*

Mundialın ilk sürpriz nəticəsi D qrupunda qeydə alındı. Çempionatın favoritlərindən sayılan Argentina İslandiya ilə heç-heçə oynayaraq (1:1) futbol dünyasını təəccübləndirdi. Argentina İslandiya ilə qarşılaşmada zəif çıxış etsə də, heyətində Lionel Messi kimi futbolçu varsa, deməli, mundialın əsas favoritlərindən biri sayılır. Eyni zamanda hücum xəttində Serxio Aguero ("Mançester Siti") və "Yuventus"lu cütlük - Qonsalo İquain və Paolo Dibala kimi futbolçular da var.

Amma argentinalıların Messisiz necə oynadıqlarını bilmək üçün martda İspaniya (1:6) və ötən ilin noyabrında Nigeriya (2:4) ilə yoldaşlıq görüşlərinin nəticələrinə baxmaq kifayətdir.

2004-cü ildən bəri bir dəfə dünya çempionatında (DÇ-2014), 4 dəfə də Amerika kubokunda finalda uduzan Argentina millisi DÇ-2018-in ən yaşlı komandasıdır (29,6 yaş).

Rusiya mundialında 32 komandadan 20-nin 2014-cü il dünya çempionatında iştirak etməsi diqqət çəkir. DÇ-2018 həmçinin Avropadan İslandiya, Mərkəzi Amerikadan Panamanın debütü ilə yadda qalır. Özü də İslandiya əhalisinin sayına görə (348580 nəfər) dünya çempionatlarına qatılan ən kiçik ölkədir. Rusiyada onlardan hər sürprizi gözləmək olar.

**Xorvatiya - Nigeriya - 2:0**
*Qollar: Oqenekaro Etebo, 23 (avtoqol), Luka Modriç, 71 (pen.)*
*Baş hakim: Sandro Riççi (Braziliya)*
*Kalininqrad, "Kalininqrad" stadionu*

D qrupunun digər matçında isə Xorvatiya və Nigeriya komandaları üz-üzə gəldilər. Oqenekaro Etebonun avtoqolu və Luka Modriçin dəqiq penalti zərbəsi sayəsində 2:0 hesabı ilə qalib gələn xorvatlar 3 xalı hesablarına yazdırdılar.

Xorvatiya millisi bu il keçirdiyi 4 yoldaşlıq görüşünün 2-də qalib gəlib, 2-də də məğlub olub. Debüt etdiyi 1998 mundialında 3-cü yeri tutan xorvatlar bundan sonra iştirak etdikləri üç dünya çempionatında qrupdan çıxa bilməyiblər. Heyətində "Real Madrid" (Luka Modriç, Mateo Kovaçiç), "Barselona" (İvan Rakitiç) və "Yuventus" (Mario Mandukiç) kimi klubların futbolçuları var.

Nigeriya millisi isə bundan əvvəl qatıldığı 5 mundialdan üçündə 1/8 finala çıxsa da, komandanın son vaxtlardakı nəticələri ümidverici deyil. 2015-ci və 2017-ci illərin Afrika Millətlər Kubokuna vəsiqə qazana bilməyən nigeriyalılar bu il keçirdikləri 6 yoxlama oyunundan 4-də məğlub olublar.

Rusiya mundialında ən gənc heyətə (orta yaş 25,9) malik olan "Super qartallar"ın ən təcrübəli futbolçusu vaxtilə "Çelsi"də oynamış 31 yaşlı yarımmüdafiəçi Con Obi Mikel, komandanın qol ümidi isə ÇSKA-dakı çıxışı ilə tanınan hücumçu Ahmed Musadır. Bu həmin Musadır ki, Ramazan ayında vətənində borcuna görə həbs olunmuş 40 nəfərin pulunu ödəyərək onları azadlığa buraxdırıb.

# Almanlardan uğursuz start



**Almaniya - Meksika - 0:1**
*Qol: İrvinq Losan, 35*
*Baş hakim: Alireza Faqani (İran)*
*Moskva, "Lujniki" stadionu*

İngiltərənin tanınmış veteran futbolçusu Qari Linekerin "Futbol sadə oyundur, 22 nəfər 90 dəqiqə topun dalınca qaçır, yekunda isə almanlar qalib gəlir" fikri bu dəfə özünü doğrultmadı. Belə ki, F qrupunun ilk matçında Meksika millisi ilə qarşılaşan almanlar 0:1 hesabı ilə uduzaraq mundiala məğlubiyyətlə başladılar.

Çempionluğu qazanmaq nə qədər çətindirsə, bu titulu qorumaq ondan da çətindir. DÇ-2014-ün qalibi olan Almaniya millisi italyanların 1938-ci il və braziliyalıların 1962-ci il mundialında bacardığını təkrarlamağa çalışacaq.

Meksika millisinin iştirak etdiyi son 6 mundialın hamısında qrup mərhələsini adlaması, amma 1/8 finalda ilişib qalması ilə diqqət çəkir. Bu komanda ən yaxşı halda öz ölkəsində keçirilən 1970-ci və 1986-cı il mundiallarında 1/4 finala çıxa bilib. Yeri gəlmişkən, Meksika millisinin yarımmüdafiəçisi Manuel Neqretenin 1986-cı ildə bolqarlarla oyunda qayçı zərbəsiylə vurduğu məşhur qolun, FİFA-nın aprel ayında "Facebook"da keçirdiyi sorğuya əsasən, dünya çempionatları tarixinin ən yaxşı qolu seçilməsi də, yəqin ki, meksikalılara əlavə stimul verəcək.

Rusiya mundialında ən yaşlı komandalardan biri (orta yaş - 29,4) olan Meksika millisinin 39 yaşlı müdafiəçisi Rafael Markes özünün 5-ci dünya çempionatına qatılır. Son 4 hazırlıq matçının yalnız birində qələbəyə sevinən komandanın qol ümidi isə Çiçarito ləqəbli Xavyer Ernandesdir.

**İsveç - Cənubi Koreya - 1:0**
*Qol: Qrankvist, 65 (pen.)*
*Baş hakim: Xoel Aqilar (Salvador)*
*Nijni Novqorod, Şəhər stadionu*

F qrupunun digər matçında isə İsveçlə C.Koreya yığmaları üz-üzə gəldilər. Matçın taleyini 1 qol həll edib. Belə ki, Andreas Qranqvistin penaltidən vurduğu yeganə top İsveçə 3 xal qazandırıb.

İsveçlilər DÇ-1994-də 3-cü yeri tutduqdan sonra keçirilən 5 mundialın yalnız ikisində iştirak edib və 1/8 finala çıxa biliblər. Unutmayaq ki, İsveç millisi italyanları Rusiya mundialından kənarda qoyan komandadır.

Yeri gəlmişkən, millidə sonuncu oyununu 2016-cı ildə keçirən və o vaxt yığmada karyerasını bitirdiyini elan etmiş Zlatan İbrahimoviç mundial ərəfəsində "Dünya çempionatına gedəcəyəm" deməklə azarkeşlərini yenidən İsveç komandasına mümkün qayıdışı ilə bağlı ümidləndirsə də, baş məşqçi bunun mümkünsüzlüyünü qeyd etmişdi.

Ardıcıl 9-cu mundialda çıxış edən Cənubi Koreya millisi DÇ-2002-də 4-cü yer tutub, DÇ-2010-da isə 1/8 finala çıxa bilib. Son 6 yoldaşlıq görüşünün yalnız birində qalib gələn koreyalıların indi həmin nailiyyətləri təkrarlayacağı inandırıcı görünmür.

Rekord sayda - 3 dəfə, o cümlədən 2017-ci ildə "Asiyanın ən yaxşı beynəlxalq oyunçusu" (yəni qitədən kənarda çıxış edən ən yaxşı oyunçu) adına layiq görülən "7 nömrə" Son Hun Min Cənubi Koreya komandasının əsas qol ümidi sayılır. Lakin İsveçlə matçda heç də özünü yaxşı tərəfdən göstərə bilmədi. 2015-ci ildən "Tottenhem"in şərəfini qoruyan 25 yaşlı forvardın karyerası ərzində iki dəfə Premyer Liqada ayın oyunçusu seçilib.

**F qrupu**

| Komandalar | O | Q | M | H | X |
|---|---|---|---|---|---|
| Meksika | 1 | 1 | 0 | 0 | 3 |
| İsveç | 1 | 1 | 0 | 0 | 3 |
| Almaniya | 1 | 0 | 1 | 0 | 0 |
| C.Koreya | 1 | 0 | 1 | 0 | 0 |

# İngilislər son dəqiqədə sevindilər



**Belçika - Panama - 3:0**
*Qollar: Dris Mertens, 47; Romelu Lukaku, 69, 75*
*Baş hakim: Canni Sikazu (Zambiya)*
*Soçi, "Fişt" stadionu*

G qrupunda mübarizəyə Belçika-Panama matçı ilə start verilib. Turnirin favoritlərindən sayılan belçikalılar rəqibini asanlıqla üstələyib - 3:0.

Xatırladaq ki, 1986-cı il mundialında 4-cü yeri tutan Belçika millisi DÇ-2014-də ən yüksək nailiyyətini təkrarlamağa yaxın olsa da, yarımfinal ərəfəsində argentinalılara uduzmuşdu (0:1). Avro-2016-da da 1/4 finalda büdrəyən belçikalılar 2016-cı ilin sentyabrından bəri məğlubiyyət nə olduğunu bilmirlər və bu müddətdə 19 oyundan 14-də qələbə qazanıblar.

Rusiya mundialının gizli favoritlərindən hesab olunan Belçika komandasının 11 oyunçusu İngiltərə Premyer Liqasında çıxış edir ki, onlardan da qapıçı Tibo Kurtua ("Çelsi"), müdafiəçilər - 102 oyunla millinin formasını hamıdan çox geyinmiş Yan Vertongen ("Tottenhem") və Vinsen Kompani ("Mançester Siti"), yarımmüdafiəçi Kevin De Bröyne ("Mançester Siti") və hücumçular - 36 qolla millinin bütün dövrlər ərzində ən sərrast oyunçusu Romelu Lukaku ("Mançester Yunayted") və Eden Hazarı ("Çelsi") qeyd etmək mümkündür.

DÇ-2018-in iki debütantından biri olan Panama millisindən heç kim böyük nəticələr gözləmir. Panamalılar öz qitələrində də ən yaxşı halda iki dəfə vitse-çempion olublar (2005-ci , 2013-cü illərdə). Son 7 yoxlama oyununda cəmi 1 qələbə qazanması və o cümlədən Belçikaya 0:3 hesabı ilə uduzması da komandanın zəifliyindən xəbər verir.

Maraqlıdır ki, Panama millisinin 5 futbolçusu Avropada çıxış edir ki, onlar da "Dinamo Buxarest" (Rumıniya) və "Dunayska Streda" (Slovakiya) klublarında, həmçinin "Gent" (Belçika) və "Deportivo La Korunya"nın (İspaniya) ikinci komandalarında forma geyirlər.

**G qrupu**

| Komandalar | O | Q | M | H | X |
|---|---|---|---|---|---|
| Belçika | 1 | 1 | 0 | 0 | 3 |
| İngiltərə | 1 | 1 | 0 | 0 | 3 |
| Tunis | 1 | 0 | 1 | 0 | 0 |
| Panama | 1 | 0 | 1 | 0 | 0 |

**Tunis - İngiltərə - 1:2**
*Qollar: Fercani Sassi, 35 (pen.) - Harri Keyn, 11, 90+1*
*Baş hakim: Vilmar Roldan (Kolumbiya)*
*Volqoqrad, "Volqoqrad Arena"*

G qrupunun digər matçında isə Tunis və İngiltərə yığmaları görüşüblər. Hamı ingilislərin asanlıqla qalib gələcəklərini düşünsə də, bu olmadı. Çətinliklə olsa da, kapitan Harri Keynin dublu ingilislərə qələbə qazandırdı. Tunis millisi nümayiş etdirdiyi əzmkar oyunla digər görüşlər üçün azarkeşlərində ümid yaratdı.

1998-2006-cı illərdə ardıcıl 3 mundiala qatıldıqdan sonra iki dünya çempionatını buraxan Tunis millisi heç vaxt qrup mərhələsini adlaya bilməyib. "Karfagen qartalları"nın bu uğursuzluğu Rusiya mundialında durduracaqları inandırıcı görünmür. Ancaq İngiltərə ilə qarşılaşma azarkeşlərdə az da olsa, ümid qığılcımı yarada bildi.

Maraqlıdır ki, heyətində tanınmış futbolçu olmayan komandanın DÇ-2018-də oynamaq təklifini Almaniya millisinin üzvü Sami Xediranın "Auqsburq"da çıxış edən 24 yaşlı yarımmüdafiəçi qardaşı Rani Xedira qəbul etməyib.

Bu matça kimi bir ildir uduzmayan İngiltərə millisi keçirdiyi 10 oyundan 7-də qələbə qazanıb. DÇ-2014-də gözlənilmədən qrupda sonuncu yeri tutan ingilislər həmin uğursuzluğun təsadüf olduğunu Rusiyada sübut etməyə çalışacaqlar.

Xüsusilə İngiltərə millisinin Harri Keyn ("Tottenhem"), Rahim Sterlinq ("Mançester Siti"), Ceymi Vardi ("Lester"), Danni Uelbek ("Arsenal") və Markus Reşforddan ("Mançester Yunayted") ibarət hücum xətti çox vahiməli görünür.

***Elçin CƏFƏROV, "Azərbaycan"***

# Tarixə düşən qələbə

**Kolumbiya - Yaponiya - 1:2**
*Qollar: Xuan Kintero, 39 - Sindzi Kaqava, 6 (pen.); Yuya Osako, 73*
*Qırmızı vərəqə: Karlos Sançes, 3*
*Baş hakim: Damir Skomina (Sloveniya)*
*Saranks, "Mordoviya Arena"*

Kolumbiya-Yaponiya matçı il qrupda mübarizəyə start verildi. Daha əzmkar oyun nümayiş etdirən yaponlar 2:1 hesabı ilə qələbə qazandılar. Bu qalibiyyət eyni zamanda tarixə düşüb. Belə ki, bu vaxta qədər heç bir mundialda Asiya təmsilçisi Cənubi Amerika komandasına qalib gələ bilməmişdi.

Görünür, ötən əsrin 90-cı illərində üç mundialda çıxış etmiş, gur saç düzümü ilə yadda qalan kolumbiyalı Karlos Valderramanın arzusu ürəyində qalacaq. 56 yaşlı keçmiş futbolçu Kolumbiya millisinin dünya çempionu olacağı təqdirdə saçını dibindən qırxdıracağına söz verib. Lakin yaponlarla qarşılaşma Kolumbiyanın mundiala heç də istənilən səviyyədə hazır olmadığını nümayiş etdirdi.

Bu komanda DÇ-2014-də 1/4 finala çıxaraq tarixinin ən yüksək nailiyyətinə imza atmış, futbolçusu Xames Rodriges isə 6 qolla mundialın bombardiri olmuşdu.

Yaponiya millisi isə dünya çempionatının başa çatmasına 2 ay qalmış komandanı final mərhələsinə çıxaran baş məşqçi Vahid Halilhodjiçi istefaya göndərməklə gündəmə gəlmişdi.

Bu il keçirdikləri 5 yoldaşlıq görüşünün 3-də uduzan yaponlar yalnız mundialın startına iki gün qalmış paraqvaylılarla hazırlıq matçında qələbəyə seviniblər - 4:2. Komandanın qol ümidi "Lester"də çıxış edən 32 yaşlı hücumçu Sindzi Okadzakidir. Ondan başqa, təcrübə baxımından vaxtilə "Milan"da çıxış etmiş 31 yaşlı yarımmüdafiəçi Keysuke Honda və Dortmund "Borussiya"sının 29 yaşlı yarımmüdafiəçisi Sindzi Kaqavanı da fərqləndirmək mümkündür.

1998-ci ildən mütəmadi dünya çempionatlarına qatılan və 5 mundialdan ikisində 1/8 finala çıxan yaponların bu dəfə də qrupda uğurla çıxış edəcəklərini proqnozlaşdırmaq olar.

**Polşa - Seneqal - 1:2**
*Qollar: Krixkovyak, 86 - Sionek, 38 (avtoqol), Mbaye Nianq, 60*
*Baş hakim: Navaf Şükrülla (Bəhreyn)*
*Moskva, "Spartak" stadionu*

H qrupunun digər matçında Polşa millisi Seneqal seçməsi ilə qarşılaşdı. Ötən əsrin 70-80-ci illərində qızıl dövrünü yaşayan Polşa millisi ondan sonra DÇ-2002 və DÇ-2006-da iştirak etmiş və qrupda qalmışdı. Rusiya mundialı ərəfəsində isə komanda keçirdiyi 4 yoldaşlıq görüşündə 2 qələbə, 1 heç-heçə və 1 məğlubiyyətə imza atıb.

Polşalıların əsas qol ümidi "Bavariya"nın (Almaniya) 29 yaşlı forvardı Robert Levandovskidir. O, 16 qolla DÇ-2018-in seçmə mərhələsində Avropa zonasının bombardiri olub. Ümumiyyətlə, Levandovski 55 qolla Polşa millisinin bütün dövrlər ərzində ən məhsuldar oyunçusudur.

Lakin polşalılar mundiala istədikləri kimi başlaya bilmədilər. Daha baxımlı və mübariz oyun nümayiş etdirən Seneqal 2:1 hesabı ilə qalib gələrək DÇ-2018-ə 3 xalla başladı.

Seneqal millisində UEFA Çempionlar Liqasının finalçısı İngiltərənin "Liverpul" komandasının ulduzu Sadio Manenin çıxışı xüsusilə diqqət çəkdi. 26 yaşlı cinah oyunçusu 2016-cı ildə "Afrikanın ən yaxşı futbolçusu" sorğusunda 3-cü, ötən il isə 2-ci yeri tutub. O, həmçinin "Liverpul"da debüt etdiyi 2016-2017-ci il mövsümündə komandanın ən yaxşı futbolçusu seçilib.

Bundan əvvəl yalnız 2002-ci ildə mundialda çıxış edən Seneqal millisi o vaxt sensasiyalı şəkildə 1/4 finala çıxmış və yalnız türk İlhan Mansızın "qızıl qol"u üzündən mübarizəni dayandırmışdı. Yeri gəlmişkən, həmin komandanın ulduzlarından biri El Haci Diuf liberiyalı Corc Veanın ölkəsində prezident seçilməsindən ruhlanaraq bu günlərdə siyasətlə məşğul olacağını açıqlayıb.

**H qrupu**

| Komandalar | O | Q | M | H | X |
|---|---|---|---|---|---|
| Yaponiya | 1 | 1 | 0 | 0 | 3 |
| Seneqal | 1 | 1 | 0 | 0 | 3 |
| Kolumbiya | 1 | 0 | 1 | 0 | 0 |
| Polşa | 1 | 0 | 1 | 0 | 0 |


## "Azərişıq"ASC 2018-ci ildə tələb olunan Xüsusi sayğacoxuma avadanlıqlarının satın alınması üzrə açıq tender elan edir

Tender 1 (bir) LOT üzrə keçirilir:
**LOT-1**
Xüsusi sayğacoxuma avadanlıqlarının satın alınması - 400 manat

**"Azərişıq" ASC**
**VÖEN:** 9900069391
**Hesab №:** AZ83AIIB33020029441802068118
**Benefisiarın Bankı:** "Kapital Bank"ın Gənclik filialı
**Kod:** 200189
**VÖEN:** 9900003611
**Müxbir hesab №:** AZ37NABZ01350100000000001944
**SWIFT Code:** AIIBAZ2X

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş və imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə göstərilən məbləğdə iştirak haqqını qeyd olunan hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Ə.Qayıbov küçəsi, 8 ünvanında yerləşən "Azərişıq" ASC-nin inzibati binasından ala bilərlər.

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**
**Əlaqələndirici şəxs - Emin Əmirov**
**(telefon: 440-39-93 daxili (22-21))**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 2 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində 2 (iki) nüsxədə (1 ədəd əsli və 1 ədəd surəti) tərtib olunmalıdır (xarici dildə olan məlumatlar Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq həyata keçiriləcəkdir (www.tender.gov.az).

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **25 iyul 2018-ci il saat 15:00-a** qədər, ixtisas uyğunluğu prosedurunu keçmiş iddiaçılar isə tender təklifi və bank təminatını möhürlənmiş ikiqat zərfdə **01 avqust 2018-ci il saat 15:00-a** qədər Bakı şəhəri, Ə.Qayıbov küçəsi, 8 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim edilmiş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **02 avqust 2018-ci il tarixdə saat 16:00-da** Bakı şəhəri, Ələsgər Qayıbov küçəsi, 8 ünvanında "Azərişıq" ASC-nin inzibati binasında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

*Təkrar*

## "Azərişıq" ASC 2018-ci ildə tələb olunan avtomobil ehtiyat hissələrinin satın alınması üzrə

# açıq tender elan edir

Tender 1 (bir) LOT üzrə keçirilir:
LOT-1

Avtomobil ehtiyat hissələrinin satın alınması - 400 manat

"Azərişıq" ASC
VÖEN: 9900069391
Hesab №: AZ83AIIB33020029441802068118
Benefisiarın Bankı: Kapital Bankın Gənclik filialı
Kod: 200189
VÖEN: 9900003611
Müxbir hesab №: AZ37NABZ01350100000000001944
SWIFT Code: AIIBAZ2X

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər lot üzrə göstərilən məbləğdə iştirak haqqını qeyd olunan hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Ə.Qayıbov küçəsi, 8 ünvanında yerləşən "Azərişıq" ASC-nin inzibati binasından ala bilərlər.

İştirak haqqı heç bir halda geri qaytarılmır.

Əlaqələndirici şəxs - Rövşən Əsgərov (telefon: 440-39-93 daxili (22-33))

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 2 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində 2 (iki) nüsxədə (1 ədəd əsli və 1 ədəd surəti) tərtib olunmalıdır (xarici dildə olan məlumatlar Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq həyata keçiriləcəkdir (www.tender.gov.az).

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 11 iyul 2018-ci il saat 15:00-a qədər, ixtisas uyğunluğu prosedurunu keçmiş iddiaçılar isə tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 18 iyul 2018-ci il saat 15:00-a qədər Bakı şəhəri, Ə.Qayıbov küçəsi, 8 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim edilmiş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 19 iyul 2018-ci il tarixdə saat 16:00-da Ələsgər Qayıbov küç. 8 ünvanında "Azərişıq" ASC-nin inzibati binasında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

# B İ L D İ R İ Ş

**"Azərbaycan" qəzetinin 13 və 24 fevral 2018-ci il tarixli nömrələrində Azərbaycan Respublikasının Dövlət Neft Fondu (ARDNF) tərəfindən malların, işlərin və xidmətlərin satın alınması məqsədilə dərc edilmiş elanlar üzrə keçirilən 46 lotdan ibarət açıq tenderin 23 lot üzrə nəticələri aşağıdakı kimi olmuşdur:**

**- LOT 3.** 1 ədəd split kondisionerin və split kondisionerlər üçün zəruri xidmət ləvazimatlarının satın alınması üzrə qalib "Kartes" Məhdud Məsuliyyətli Cəmiyyəti olmuşdur. Qalib şirkətlə 11 iyun 2018-ci il tarixdə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

**- LOT 11.** Dəftərxana ləvazimatlarının satın alınması üzrə qalib "OFİS ALƏMİ" Məhdud Məsuliyyətli Cəmiyyəti olmuşdur. Qalib şirkətlə 11 iyun 2018-ci il tarixdə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

**- LOT 12.** Fonddaxili istifadə üçün nəzərdə tutulan ərzaq mallarının satın alınması üzrə qalib "BRF İNTERNATİONAL" Məhdud Məsuliyyətli Cəmiyyəti olmuşdur. Qalib şirkətlə 11 iyun 2018-ci il tarixdə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

**- LOT 13.** Azqiymətli və çox istifadə olunan təsərrüfat mallarının satın alınması üzrə qalib "Kartes" Məhdud Məsuliyyətli Cəmiyyəti olmuşdur. Qalib şirkətlə 11 iyun 2018-ci il tarixdə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

**- LOT 14.** Transformator məntəqəsi üçün mühafizə vasitələrinin satın alınması üzrə qalib "Safe Life" Məhdud Məsuliyyətli Cəmiyyəti olmuşdur. Qalib şirkətlə 11 iyun 2018-ci il tarixdə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

**- LOT 15.** Armstrong markalı yanğın nasosu üçün akkumulyatorların satın alınması üzrə qalib "Kartes" Məhdud Məsuliyyətli Cəmiyyəti olmuşdur. Qalib şirkətlə 11 iyun 2018-ci il tarixdə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

**- LOT 16.** Carrier markalı ümumi havalandırma qurğuları (AHU və Fan coil) üçün sərfiyyat mallarının (qayış, filtr, nəmləndirici çən və legioner həb) satın alınması üzrə qalib "AİRFRESH SERVİS" Məhdud Məsuliyyətli Cəmiyyəti olmuşdur. Qalib şirkətlə 11 iyun 2018-ci il tarixdə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

**- LOT 18.** Xarici poçt xidmətlərinin satın alınması üzrə qalib "Pegasus" Məhdud Məsuliyyətli Cəmiyyəti olmuşdur. Qalib şirkətlə 11 iyun 2018-ci il tarixdə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

**- LOT 20.** AIRWATCH lisenziyaların 1 il müddətinə uzadılması xidmətinin satın alınması üzrə qalib "N-LINK INTELLIGENT SOLUTIONS" Məhdud Məsuliyyətli Cəmiyyəti olmuşdur. Qalib şirkətlə 11 iyun 2018-ci il tarixdə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

**- LOT 25.** Cisco İT avadanlıqlarına (SMARTNET) istehsalçı zəmanətlərinin 1 il müddətinə uzadılması xidmətinin satın alınması üzrə qalib "N-LINK INTELLIGENT SOLUTIONS" Məhdud Məsuliyyətli Cəmiyyəti olmuşdur. Qalib şirkətlə 11 iyun 2018-ci il tarixdə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

**- LOT 32.** İnzibati binada quraşdırılmış yanğınsöndürmə sistemləri və avadanlıqlarına (Armstrong markalı nasoslar, drençerlər, sprinklerlər, balonlar, hidrantlar, hava kompressorları və s.) texniki xidmətin (sərfiyyat malları və onların dəyişdirilməsi daxil olmaqla) satın alınması üzrə qalib "CLIMASERVICE BAKU" Məhdud Məsuliyyətli Cəmiyyəti olmuşdur. Qalib şirkətlə 11 iyun 2018-ci il tarixdə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

**- LOT 33.** FM 200 (azot) tipli yanğınsöndürmə qurğularına texniki xidmətin satın alınması üzrə qalib "Safe Life" Məhdud Məsuliyyətli Cəmiyyəti olmuşdur. Qalib şirkətlə 11 iyun 2018-ci il tarixdə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

**- LOT 34.** Yanğından mühafizə sistemlərinə və qurğularına (SİMPLEX, BOSCH Praesideo və VESDA VLF) texniki xidmətin satın alınması üzrə qalib "Caspian Building Systems" Məhdud Məsuliyyətli Cəmiyyəti olmuşdur. Qalib şirkətlə 11 iyun 2018-ci il tarixdə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

**- LOT 35.** Emerson markalı kəsintisiz güc mənbələrinə (UPS) texniki xidmətin satın alınması üzrə qalib "CLIMASERVICE BAKU" Məhdud Məsuliyyətli Cəmiyyəti olmuşdur. Qalib şirkətlə 11 iyun 2018-ci il tarixdə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

**- LOT 36.** Trane markalı ümumi soyutma qurğularına (Chiller) texniki xidmətin satın alınması üzrə qalib "AİRFRESH SERVİS" Məhdud Məsuliyyətli Cəmiyyəti olmuşdur. Qalib şirkətlə 11 iyun 2018-ci il tarixdə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

**- LOT 38.** Caterpillar markalı generatorlara texniki xidmətin (sərfiyyat malları və onların dəyişdirilməsi daxil olmaqla) satın alınması üzrə qalib "Hightechnic Systems" Məhdud Məsuliyyətli Cəmiyyəti olmuşdur. Qalib şirkətlə 11 iyun 2018-ci il tarixdə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

**- LOT 39.** Secalt markalı fasad təmizləmə qurğularına texniki xidmətin satın alınması üzrə qalib "Avropa Lift Sistemləri" Məhdud Məsuliyyətli Cəmiyyəti olmuşdur. Qalib şirkətlə 11 iyun 2018-ci il tarixdə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

**- LOT 40.** Emerson markalı serverlər üçün soyutma qurğularına (Cracks) texniki xidmətin (sərfiyyat malları və onların dəyişdirilməsi daxil olmaqla) satın alınması üzrə qalib "CLIMASERVICE BAKU" Məhdud Məsuliyyətli Cəmiyyəti olmuşdur. Qalib şirkətlə 11 iyun 2018-ci il tarixdə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

**- LOT 41.** Nobel markalı su təmizləyici qurğulara texniki xidmətin (sərfiyyat malları və onların dəyişdirilməsi daxil olmaqla) satın alınması üzrə qalib "CLIMASERVICE BAKU" Məhdud Məsuliyyətli Cəmiyyəti olmuşdur. Qalib şirkətlə 11 iyun 2018-ci il tarixdə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

**- LOT 42.** Grundfoss markalı su nasoslarına texniki xidmətin (sərfiyyat malları və onların dəyişdirilməsi daxil olmaqla) satın alınması üzrə qalib "Hydrotech" Məhdud Məsuliyyətli Cəmiyyəti olmuşdur. Qalib şirkətlə 11 iyun 2018-ci il tarixdə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

**- LOT 43.** Buderus markalı qazanlara (Boiler) texniki xidmətin satın alınması üzrə qalib "ASC Co" Məhdud Məsuliyyətli Cəmiyyəti olmuşdur. Qalib şirkətlə 11 iyun 2018-ci il tarixdə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

**- LOT 44.** Mühəndis-texniki avadanlıqlara (şlaqbaumlar, gunnebo qapıları, darvaza jalüzlər, qalxan maneələr, alaqapılar, darvazalar, car-parking sistemi, UVİSCAN avtomobillərin yoxlama və nəzarət sistemi və.s) texniki xidmətin və sensorların (iberseguar avtodayanacağın idarəedilməsi sistemi üçün) satın alınması üzrə qalib "GLOBAL SECURİTY SYSTEMS" Məhdud Məsuliyyətli Cəmiyyəti olmuşdur. Qalib şirkətlə 11 iyun 2018-ci il tarixdə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

**- LOT 46.** Mətbəə işlərinin satın alınması üzrə qalib "A-Dizayn" Məhdud Məsuliyyətli Cəmiyyəti olmuşdur. Qalib şirkətlə 11 iyun 2018-ci il tarixdə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

# B İ L D İ R İ Ş

"Azərsu" ASC-nin daxili vəsaiti hesabına tkinti və elektrik mal-materiallarının satın alınması məqsədi ilə dərc edilmiş tender elanlarında 2,3,8 -ci lotlar üzrə yetərsay olmadığı üçün tender təkliflərinin təminatı və tender təkliflərinin qəbulu 05.07.2018-ci il saat 16:00-a, tender təkliflərinin açılışı isə 06.07.2018-ci il saat 16:00-a təyin olunmuşdur.

**Əlaqələndirici şəxs: satınalmaların təşkili və idarə olunması departamentinin tenderlərin təşkili şöbəsinin mühəndisi Hikmət Qasımov (hikmat.qasimov@azersu.az +994124314767 (2249))**

***Tender komissiyası***

## Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə Moskvada "Qanın milləti yoxdur" adlı aksiya keçirilib

Artıq ardıcıl olaraq onuncu ildir ki, Rusiya Azərbaycanlı Gənclər Birliyi (RAGB) və İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Azərbaycan klubu "Qanın milləti yoxdur" adlı aksiya keçirirlər.

Tədbirin əsas təşkilatçılarından olan RAGB İdarə Heyətinin sədri, tibb elmləri namizədi Samir Əliyev AZƏRTAC-a bildirib ki, Heydər Əliyev Fondunun vitse-prezidenti, RAGB-nin sədri Leyla Əliyevanın təşəbbüsü ilə növbəti humanitar donor aksiyası İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Qan Mərkəzində keçirilib. Yubiley aksiyasında 50-dən çox insan iştirak edib. Onun sözlərinə görə, donor aksiyasının iştirakçıları bir tərəfdən öz sağlamlıq durumu haqqında məlumat alır, digər tərəfdən, qana ehtiyacı olan insanlara yardım etməklə xeyirxah iş görürlər. Qan Mərkəzinin rəhbəri, tibb elmləri doktoru, professor Əliheydər Rəhimov hər il təşkil edilən "Qanın milləti yoxdur" donor aksiyasına görə RAGB-nin sədri Leyla Əliyevaya və Azərbaycan klubuna təşəkkür edib.

İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Azərbaycan klubunun sədri Hava Səfərova bildirib ki, bu cür tədbirlər insanlar arasında dostluğun, etimadın və qarşılıqlı anlaşmanın möhkəmlənməsinə kömək edir. O deyib: "Biz bu aksiya ilə bütün dünyaya göstərmək istəyirik ki, qan tökülməməli, əksinə, paylaşılmalıdır! Donorların aksiyaya qoşulmasını yüksək qiymətləndiririk. Qan insanları birləşdirir. "Bizim damarlarımızdan eyni qan axır" sözləri keçirdiyimiz tədbirdə gerçəkliyə çevrilir".

Qeyd edək ki, RAGB-nin aksiyaları son on ildə müntəzəm olaraq əcnəbi tələbələrlə iş üzrə dekanlığın əməkdaşları və tələbələrlə birgə keçirilir.

## Heydər Əliyev Fondunun təqdim etdiyi azərbaycanlı dirijor beynəlxalq müsabiqədə

"Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva mədəniyyətin inkişafına və təşviqinə böyük töhfələr verir. Heydər Əliyev Fondu Azərbaycan mədəniyyətinin inkişafı, təbliği, mədəni abidələrin qorunmasına dair mühüm layihələrin müəllifidir. Layihəmizə göstərilən diqqətə görə Heydər Əliyev Fonduna, Birinci vitse-prezident Mehriban Əliyevaya təşəkkür edirəm". Bu fikri Parisdə "Radio France" radiostansiyasının əsas binasında Yevgeni Svetlanov adına IV Beynəlxalq dirijorlar müsabiqəsinin yarımfinalına dair mətbuat konfransında konkursun təsisçisi Marina Bouer bildirib.

Qeyd edib ki, bu il Heydər Əliyev Fondu tərəfindən müsabiqəyə təqdim olunan Fuad İbrahimovun namizədlik dosyesi yüksək qiymətləndirilib və o, yarımfinala yüksəlib. Ümid edirik, bu azərbaycanlı istedadlı dirijoru finalda görəcəyik.

"Radio France"ın əsas binasında Yevgeni Svetlanov IV Beynəlxalq dirijorlar müsabiqəsinin yarımfinalına həsr edilmiş mətbuat konfransında bildirib ki, cari ildə müsabiqəyə 350 namizəd öz dosyesini təqdim edib. Onlardan 18 namizəd yarımfinala çıxıb. Azərbaycanlı Fuad İbrahimov da yarımfinalçılar arasındadır.

Qeyd edək ki, Yevgeni Svetlanov adına IV dirijorlar müsabiqəsi Parisdə "Radio France", "France musique", "L'orchestre philharmonique" və Heydər Əliyev Fondunun sponsorluğu ilə keçirilir. Cari ilin sentyabrında Parisdə müsabiqənin finalı və Moskvada Yevgeni Svetlanov festivalı keçiriləcək.

***AZƏRTAC***

*Təkrar*

## GÖYÇAY RAYON İCRA HAKİMİYYƏTİ

# açıq tender elan edir

**Tender 1 LOT üzrə keçirilir:**

**LOT 1 -** Göyçay şəhərində mənzillərin təmiri işlərinin görülməsi.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu **Göyçay rayonu, M.Ə.Rəsulzadə küçəsi, 130 (Əlaqələndirici şəxs: Kamran İlqar oğlu Kərimov, telefon: (051) 408-76-76) ünvanından ala bilərlər.**

**İştirak haqqı:**
**LOT 1 - 100 (bir yüz) manat**

| | |
|---|---|
| **Hesab:** | **AZ39CTRE00000000000002511331** |
| **VÖEN:** | **6000043011** |
| **Bank:** | **"Kapital Bank" ASC-nin Göyçay filialı** |
| **Kod:** | **200792** |
| **VÖEN:** | **9900003611** |
| **M/H:** | **AZ37NABZO1350100000000001944** |
| **S.W.İ.F.T:** | **BİK AİİBAZ2X** |

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 2 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
- *digər sənədlər.*

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **23 iyul 2018-ci il saat 17:00-a** qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə **30 iyul 2018-ci il saat 17:00-a** qədər Göyçay rayonu, M.Ə.Rəsulzadə küçəsi, 130 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **31 iyul 2018-ci il saat 10:00-da** M.Ə.Rəsulzadə küçəsi, 130 ünvanında yerləşən Göyçay Rayon İcra Hakimiyyətinin inzibati binasında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Eldar İbrahimov və komitənin üzvləri Eldar Quliyev, Tahir Süleymanov, Mahir Aslanov, Novruzəli Aslanov, Hüseynbala Mirələmov, Elçin Quliyev, Eldəniz Səlimov, Cavanşir Paşazadə, Aydın Hüseynov və parlament aparatının əməkdaşları Vilayət Əlizadə, Zahid Abbasov, İsa Hüseynov, Məhəmməd Gülməmmədov komitənin üzvü İqbal Məmmədova əzizi

**EMİLİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bakı Dövlət Universitetinin Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin və Dünya iqtisadiyyatı kafedrasının əməkdaşları kafedranın dosenti Ümmihəbibə Qələndərovaya atası

**MƏMMƏDTAĞI MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Dövlət İqtisad Universitetinin kollektivi İqtisadiyyat (rus dilində) kafedrasının dosenti Fikrət Rəhimliyə qardaşı

**HİKMƏT RƏHİMLİNİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Bakı Apelyasiya Məhkəməsinin rəhbərliyi və kollektivi Gəncə Apelyasiya Məhkəməsinin sədri Tapdıq Mahmudova anası

**MEHRİBAN XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Gəncə Şəhər Kəpəz Rayon Məhkəməsinin sədri və kollektivi Gəncə Apelyasiya Məhkəməsinin sədri Tapdıq Mahmudova anası

**MEHRİBAN XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin rəhbərliyi və kollektivi Gəncə Apelyasiya Məhkəməsinin sədri Tapdıq Mahmudova anası

**MEHRİBAN MAHMUDOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Ali Məhkəməsinin kollektivi Gəncə Apelyasiya Məhkəməsinin sədri Tapdıq Mahmudova anası

**MEHRİBAN XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

SOCAR-ın Hüquq İdarəsinin kollektivi şirkətin Sərmayələr İdarəsi Layihələrin hüquqi ekspertizası şöbəsinin rəisi

**FUAD ŞAMİRZƏ OĞLU RƏHİMOVUN**

vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.

---

Sumqayıt İnzibati-İqtisadi Məhkəməsinin sədri İslam Əliyev Gəncə Apelyasiya Məhkəməsinin sədri Tapdıq Mahmudova anası

**MEHRİBAN XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Gəncə Apelyasiya Məhkəməsinin kollektivi məhkəmənin sədri, Məhkəmə-Hüquq Şurasının üzvü Tapdıq Mahmudova anası

**MEHRİBAN XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Gəncə Ağır Cinayətlər Məhkəməsinin kollektivi Gəncə Apelyasiya Məhkəməsinin sədri Tapdıq Mahmudova anası

**MEHRİBAN XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

"Azərbaycan Meliorasiya və Su Təsərrüfatı" ASC-nin rəhbərliyi və kollektivi "Samur-Abşeron Suvarma Sisteminin Yenidən Qurulması" Layihəsinin Həyata Keçirilməsi üzrə İşçi Qrupunun rəhbəri Arif Ağayevə bacısı

**ELMİRA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"Azərbaycan Meliorasiya və Su Təsərrüfatı" ASC-nin rəhbərliyi və kollektivi Şəki Suvarma Sistemləri İdarəsinin rəisi Sadəddin Əhmədova anası

**NƏRMİNƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Tovuz Rayon Məhkəməsinin kollektivi Gəncə Apelyasiya Məhkəməsinin sədri Tapdıq Mahmudova anası

**MEHRİBAN XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Gədəbəy Rayon Məhkəməsinin hakimi Marif Kazımov və məhkəmənin kollektivi Gəncə Apelyasiya Məhkəməsinin sədri Tapdıq Mahmudova anası

**MEHRİBAN XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Milli Su Təchizatı və Kanalizasiya Xidmətləri üzrə İkinci Layihənin Həyata Keçirilməsi üzrə İşçi Qrupunun kollektivi "Samur-Abşeron Suvarma Sisteminin Yenidən Qurulması" Layihəsinin Həyata Keçirilməsi üzrə İşçi Qrupunun rəhbəri Arif Ağayevə bacısı

**ELMİRA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az_reklam@azeronline.com
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-63-82,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60,
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 8685
Sifariş 1834